RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 14 (8607) CÜMƏ, 22 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Prezident İlham Əliyev rəsmi “Facebook” səhifəsində 20 Yanvar faciəsinin ildönümü ilə bağlı paylaşım edib



Prezident İlham Əliyev rəsmi “Facebook” səhifəsində 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda “20 Yanvar milli iradəmizin zəfər çaldığı gün” sözləri qeyd edilib.

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində 20 Yanvar faciəsi ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə əlaqədar paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Xalqımızın azadlığı uğrunda həlak olmuş həmvətənlərimizin - 20 Yanvar faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin!”

## Şəhidlərimizə dərin hörmət və ehtiramla



Qanlı 20 Yanvar faciəsindən 31 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 31-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etdilər.

Prezident İlham Əliyev “Əbədi məşəl” abidəsi önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.









# Azərbaycan-Türkmənistan münasibətlərində tarixi gün



Yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkmənistan və Azərbaycan prezidentləri görüşdə çıxış etdilər.

### Prezident Qurbanqulu Berdiməhəmmədovun çıxışı

- Hörmətli İlham Heydər oğlu, ilk növbədə, Sizi salamlamaq və bu görüşdə iştirak etdiyinizə görə təşəkkürümü bildirmək istərdim.

Bu gün Türkmənistan ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətlərində çox əhəmiyyətli gündür. Türkmənistan Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında qarşılıqlı Anlaşma Memorandumu imzalanır. Ölkələrimiz tərəfindən aparılmış çoxillik böyük işin nəticəsi olan bu sənəd enerji sahəsində əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, iki nəhəng enerji dövlətinin çox zəngin birgə potensialının üzə çıxarılmasına, Xəzər dənizi regionunda davamlı energetikanın, geniş qarşılıqlı faydalı və beynəlxalq tərəfdaşlığın inkişafı üçün ən əlverişli şərait yaradılmasına yönəlib.

Məlum olduğu kimi, 2020-ci ilin mart ayında mənim Bakıya rəsmi səfərim zamanı Sizinlə birlikdə Xəzər dənizində energetika sahəsində ikitərəfli əməkdaşlıq imkanlarını ətraflı müzakirə və təhlil etdik. Nəticədə Xəzərdə iri karbohidrogen resursları yataqlarından birində birgə iş barədə razılaşma əldə edildi. Həm də vurğulandı ki, həmin fəaliyyətin əsas prinsipləri həmrəylik, qarşılıqlı hörmət və dəstək olacaq. Buna görə də həmin yatağı “Dostluq” adlandırmaq barədə bizim ümumi qərarımız dərin rəmzi məna daşıyır. Şübhə yoxdur ki, yuxarıda qeyd etdiyim razılaşmalar, qəbul olunmuş qərarlar bizim münasibətlərimizin, dövlətlərimizin tarixinə həqiqi mehriban qonşuluğun, məsuliyyətin və uzaqgörənliyin, hüquq bərabərliyinin və bir-birinin mənafelərini nəzərə almağın parlaq nümunəsi kimi daxil olacaq.

Ardı 2-ci səh.

# Azərbaycanın ən şərəfli dövrü

2020-ci il Azərbaycan tarixinə böyük dönüş, möcüzələrin gerçəyə çevrilməsi mərhələsi kimi yazıldı. İki əsrdir mövcud olan, son 30 il ərzində isə savaşla davam edən qanlı münaqişə qüdrətli Ali Baş Komandanımızın və rəşadətli Ordumuzun hərbi qələbələri sayəsində birdəfəlik həll olundu.

Vətən müharibəsi Azərbaycanın regional liderliyini birmənalı təsbit etdi və ölkəmizi Avratlantik məkanda nüfuzlu söz sahiblərindən birinə çevirdi.

Həmçinin dünyanı bürümüş iqtisadi böhran və koronavirus pandemiyası fonunda respublikamızın əldə etdiyi müsbət nailiyyətlər cənab İlham Əliyevin liderliyində Azərbaycanın hədəflərinə düzgün istiqamətdə irəlilədiyini bir daha nümayiş etdirdi.

Ardı 4-cü səh.

◆ Qəzet mövzusunda

# İTMİŞ ÜMİDLƏR QAYIDACAQMI?!

## Yarımçıq qalmış missiya

KİV DDF getdi, yerinə MEDİA gəldi!

Loqotipində “dövlət” sözü (KİV DF) olmasa da, dövlətin vəsaiti ilə işləyərək dövlət tapşırıqlarını icra edən bu qurumun sonu ürəkaçan olmadı...

Biz, jurnalistlər buna yalnız təəssüflənə bilərik...

Belə sonluq həm də o deməkdir ki, qurum üzərinə qoyulan vəzifələri tam yerinə yetirmədi, bəslənən ümidləri sonadək doğrultmadı!

Bu gün bu barədə danışan, tənqid edən, “yeni faktlar” söyləyən, “ifşa edən” çoxdur!

Onların sırasına qoşulmaq fikrində deyilik!

Əksinə, ifrata varanlarla bəzi hallarda razılaşmırıq.

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə yaradılmışdı, dövlətin ayırdığı vəsaitlə (heç də az olmayan vəsaitlə) fəaliyyət göstərirdi. Özünün təsdiq edilmiş Nizamnaməsi də vardı.

Fond dövlətin xoş məramından, mətbuat və söz azadlığına qayğısından, jurnalistlərin sosial vəziyyətinin yüksəldilməsinə kömək niyyətindən meydana gəlmişdi!

Özü də az iş görmədi!

Ardı 5-ci səh.

# Azərbaycan-Türkmənistan münasibətlərində tarixi gün

*Əvvəli 1-ci səh.*







Onlar, əlbəttə, Türkmənistan və Azərbaycan xalqları, həmçinin bizim dövlətlərimiz arasında dostluğu və qardaşlığı daha da möhkəmlədəcək.

Şübhəsiz ki, memorandumun imzalanması Xəzərdə Türkmənistan ilə Azərbaycanın energetika sahəsində əməkdaşlığında prinsipcə yeni mərhələ deməkdir. Möhkəm beynəlxalq hüquqi bazaya əsaslanan birgə iş üçün yeni imkanlar açılır, bizim regiona sistemli və uzunmüddətli əsasda iri xarici investisiyalar axını üçün əlavə ciddi stimullar yaranır, ölkələrimizin milli iqtisadiyyatlarının inkişafına və dinamik artımına, yəni, yeni iş yerlərinin yaradılmasına, insanların həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsinə güclü təkan verilir. Fürsətdən istifadə edib iki ölkənin mütəxəssislərinə və ekspertlərinə, həmçinin məhz bu sənədin hazırlanmasına töhfə verənlərin hamısına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, bu gün Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər ardıcıl və dinamik inkişaf edir. Biz beynəlxalq arenada ümumi sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin tərəfdarları kimi uğurla əməkdaşlıq edirik. Bizim ölkələr qlobal gündəliyin prinsipial əhəmiyyətli mövzusu olan enerji təhlükəsizliyi, beynəlxalq enerji axınlarının konfiqurasiyası barədə təsəvvürlər və bütövlükdə dünya energetikasının arxitekturası haqqında eyni fikirdədirlər. Burada iki dövlətin beynəlxalq təşkilatlarda da fəal və səmərəli qarşılıqlı fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Türkmənistan onun beynəlxalq təşəbbüslərinin daim dəstəklənməsinə və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qətnamələrinin Türkmənistan tərəfindən irəli sürülmüş bir sıra layihələrinin həmmüəllifi kimi Azərbaycana təşəkkürünü bildirir. Öz növbəmdə mən də Türkmənistanın Azərbaycanın beynəlxalq qurumlarda irəli sürdüyü təşəbbüsləri və təklifləri dəstəkləməyə hazır olduğunu təsdiq edirəm. Bu kontekstdə Azərbaycan Respublikasının Qoşulmama Hərəkatında parlaq sədrliyini qeyd etmək istərdim. Bu, Azərbaycanın və onun rəhbərliyinin yüksək nüfuzunu təsdiq etdi. 2019-cu ilin oktyabr ayında Qoşulmama Hərəkatının uğurla keçirilmiş Zirvə görüşünün gedişində Türkmənistan ədalətli və şəffaf prinsiplərə, enerji mənbələrindən, onların çatdırılması vasitələrindən bərabərhüquqlu istifadəyə, həm istehsalçıların, həm də enerji resurslarını nəql edənlərin və istehlakçıların maraqlarının nəzərə alınmasına və tanınmasına əsaslanan qlobal enerji təhlükəsizliyi sisteminin formalaşmasında qoşulmayan dövlətlərin fəal iştirakının tərəfdarı kimi çıxış edib.

Xəzər mövzusunda qarşılıqlı fəaliyyət Türkmənistan-Azərbaycan əməkdaşlığının ən mühüm istiqamətidir. Ölkələrimiz Xəzər dənizinin möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və səmərəli tərəfdaşlıq zonasına çevrilməsinə böyük töhfə verirlər. Bütün Xəzəryanı ölkələrin fikrincə Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir. 2018-ci ilin avqust ayında sahilyanı beş dövlətin rəhbərləri tərəfindən Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın imzalanması çoxtərəfli birgə işin nəticəsi idi. Bu Konvensiya Xəzərdə, o cümlədən enerji sahəsində əməkdaşlığın yeni mərhələsinin başlanğıcı oldu. 2019-cu ildə Türkmənbaşı şəhərində keçirilmiş birinci Xəzər İqtisadi Forumunun gedişində biz Azərbaycan Hökumətinin nümayəndə heyəti ilə çox məzmunlu və faydalı danışıqlar apardıq, bir sıra mühüm razılaşmalar əldə etdik. Bu gün biz məhz ikitərəfli münasibətləri ardıcıl olaraq möhkəmlətməyin zəruriliyini şüurlu olaraq anlamağa, Xəzərdə əməkdaşlığın əsas istiqamətləri üzrə uzunmüddətli maraqların üst-üstə düşməsinə, Xəzərdə bizim dövlətlər, digər sahilyanı ölkələr, həmhüdud regionlar və iri beynəlxalq biznes üçün yəqin ki, açılan çox böyük perspektivlərin başa düşülməsinə əsaslanırıq.

Nəqliyyat sferası da bizim tərəfdaşlığımızın mühüm sahəsidir. Türkmənistan və Azərbaycan bu gün əfqanıstanlı, gürcüstanlı və türkiyəli tərəfdaşları ilə birlikdə Asiya ilə Avropa arasında ən mühüm kontinental magistrala çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli fəaliyyəti üzərində fəal iş aparır. Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi-Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarlarından biridir.

Hörmətli İlham Heydər oğlu, biz birlikdə böyük, mühüm və çox perspektivli bir layihəyə başlayırıq. Əminəm ki, “Dostluq” yatağında Türkmənistanın və Azərbaycanın birgə işi uğurlu və səmərəli olacaq. Bu tarixi sənədi dəstəklədiyinizə, xalqlarımız və dövlətlərimiz arasında dostluğun, qardaşlığın və əməkdaşlığın inkişafı və möhkəmlənməsi işinə böyük diqqətinizə və şəxsi töhfənizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Sizi bugünkü əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə möhkəm cansağlığı, dövləti və siyasi fəaliyyətinizdə yeni uğurlar arzu edirəm. Həmçinin bütün Azərbaycan xalqına sülh, firavanlıq və rifah arzularımı çatdırmağınızı Sizdən xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. İmzalama mərasiminin hörmətli iştirakçıları, icazə verin, çıxış üçün sözü dərin hörmətlə Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verim. Buyurun, qardaş.



## Prezident İlham Əliyevin çıxışı

- Çox sağ ol, qardaş. Hörmətli cənab Prezident, hörmətli Qurbanqulu Məlikquluyeviç. Sizi görməyimə çox şadam. Təəssüf edirəm ki, bu gün qardaş Türkmənistanda keçirilən mərasimdə iştirak edə bilmədim, lakin aydındır ki, pandemiya səbəbindən bu, hələ mümkün deyil. Bununla belə, bu gün biz videokonfrans formatında yenidən görüşmək, mühüm məsələləri müzakirə etmək, bizim qardaşlıq, dostluq münasibətlərinin xarakterini və ruhunu əks etdirən əlamətdar sənədin imzalanmasında iştirak etmək imkanına malikik. Qəti əminəm ki, ölkələrimiz arasında bütün səviyyələrdə, ilk növbədə, prezidentlər səviyyəsində sıx siyasi qarşılıqlı fəaliyyət olmasaydı, bugünkü sənədin imzalanması mümkün olmazdı.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, Sizinlə birlikdə səy göstərmişik ki, ölkələrimizin müvafiq strukturları məhz prezidentlərin onlara göstərdiyi kimi - əməkdaşlıq, dostluq, qarşılıqlı dəstək və qarşılıqlı maraqların düzgün başa düşülməsi ruhunda işləsinlər. Ona görə də mən bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək.

Son illərdə ölkələrimiz arasında münasibətlər çox müsbət dinamikaya malikdir. Ali səviyyədə qarşılıqlı səfərlərimizin xronologiyasına nəzər salmaq kifayətdir. Son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Müqayisə üçün deyim ki, bizim qarşılıqlı münasibətlərimizin bütün tarixi ərzində 100-dən çox sənəd imzalanıb, onların yarısı son 3 ildə imzalanıb. Ən sevindirici hal ondan ibarətdir ki, bütün bu sənədlər, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə etdiyimiz razılaşmalar yerinə yetirilir. Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq.

İkitərəfli qarşılıqlı fəaliyyət məsələlərinə də toxunmaq istərdim. Siz bu barədə danışdınız. Mən Sizin sözlərinizi tamamilə dəstəkləyirəm ki, biz beynəlxalq strukturlarda bir-birimizi fəal dəstəkləyirik. Fürsətdən istifadə edib Sizi və bütün qardaş türkmən xalqını keçən il qeyd etdiyiniz Türkmənistanın neytrallığının yubileyi münasibətilə təbrik etmək istərdim. Bir daha qeyd etməliyəm ki, Azərbaycan BMT Baş Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həmmüəllifi olub. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəaliyyətini qiymətləndirdiyinizə görə də Sizə təşəkkürümü bildirirəm. Sədrlik çərçivəsində bizim təşəbbüsləri, xüsusən Qoşulmama Hərəkatının Zirvə görüşünün, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin, həmçinin BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələləri üzrə xüsusi sessiyasının keçirilməsi təşəbbüslərini dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Belə qarşılıqlı dəstək bizim münasibətlərimizin ruhunu və xarakterini əks etdirir. Əminəm ki, biz milli maraqlarımızın təmin edilməsi üçün gələcəkdə də beynəlxalq arenada fəal qarşılıqlı əlaqə saxlayacağıq.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, nəqliyyat sahəsində əməkdaşlığımızı Siz artıq qeyd etdiniz. Bu əməkdaşlıq həm bizim ölkələr, həm də qonşularımız üçün böyük perspektivlər açır. Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq.

Türkmənistanın nəqliyyat-logistika potensialının möhkəmlənməsi işində Sizin şəxsi xidmətlərinizi xüsusi qeyd etmək istərdim. Ona görə ki, tranzitlə bağlı məsələlərdə qonşu ölkələrlə qarşılıqlı fəaliyyət olmasa, nəticə əldə etmək mümkün deyil. Bu gün bizim nəqliyyat-logistika infrastrukturunun yüksək səviyyəsini qeyd etməyimiz Türkmənistanın və Azərbaycanın bu sahədə məqsədyönlü fəaliyyətinə dəlalət edir. Bu, bizim regionda və hətta bu regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələr üçün çox böyük imkanlar yaradır. Ona görə ki, nəqliyyat sferası da enerji sferası kimi, ölkələri birləşdirir. Bir daha demək istəyirəm, bu gün bizim bu memorandumu imzalamağımız əlamətdar hadisədir, onun müsbət nəticələri olacaq.

Sizin dediyiniz regional əməkdaşlıq məsələsinə də toxunmaq istərdim. Azərbaycan, Türkmənistan və Türkiyə arasında, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatı artıq mövcuddur. Bu əməkdaşlıq konkret nəticəyə, biznes fəaliyyəti, iri infrastruktur layihələrinin reallaşdırılması üçün daha əlverişli şərait yaradılmasına yönəlib.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, əlbəttə, Sizin müdrik rəhbərliyinizlə Türkmənistanın durmadan inkişaf etməsini xüsusi qeyd etmək istərdim. Siz öz ölkənizi inamla inkişaf, sosial həyatın ən mühüm məsələlərinin həlli, dövlətinizin sərhədləri ilə məhdudlaşmayan infrastruktur layihələrinin həyata keçirilməsi yolu ilə irəli aparırsınız. Həmhüdud dövlətlərdə də Sizin investisiya siyasətiniz barədə bilirəm. Bunsuz Lapis-Lazuli layihəsini bu gün reallaşdırmaq mümkün olmazdı. Mən bilmirəm, bəlkə də çoxları bilmir ki, bu gün Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və daha sonra digər ölkələrə çatdırılmasını təmin edən dəmir yolu məhz Türkmənistanın qonşu Əfqanıstanda investisiyalara dair müdrik siyasəti nəticəsində inşa edilib. Buna görə də bu gün qeyd etmək istərdim ki, məhz region ölkələri ilə əməkdaşlığa bizim ümumi yanaşmalarımız və həm bizim üçün, həm də qonşularımız üçün vacib məsələlərin həlli tamamilə yeni reallıqlar yaradır.

Siz qeyd etdiyiniz kimi, Xəzər mehriban qonşuluq dənizi, əməkdaşlıq dənizidir. Əminəm ki, Xəzər ölkələrimiz arasında təbii sərhəd olduğuna baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək. Fürsətdən istifadə edib Sizdən xahiş etmək istərdim ki, qardaş Türkmənistan xalqına ən xoş arzularımı, firavanlıq, inkişaf, sülh və rifah diləklərimi çatdırasınız.

Diqqətinizə görə sağ olun.

**Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV:** Məzmunlu çıxışınıza, Türkmənistanın və onun xalqına ünvanlanan xoş sözlərinizə görə Sizə təşəkkür edirəm.

İndi isə biz Sizin razılığınızla, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mühüm tarixi sənədin imzalanması mərasiminə başlayırıq.

* * *

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalandı.

Sənədi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov imzaladılar.

* * *

**Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Hörmətli İlham Heydər oğlu, ilk növbədə, Sizi və bizim bütün azərbaycanlı qardaşlarımızı tarixi sənədin - Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması münasibətilə təbrik edirəm. Ölkələrimizin və xalqlarımızın həyatında həqiqətən əlamətdar olan bu hadisə dostluğun və əməkdaşlığın möhkəmləndirilməsinə istiqamətlənib. Uzun illər ərzində Türkmənistan və Azərbaycan iki müstəqil dövlət kimi ən geniş istiqamətlər spektri üzrə münasibətləri ardıcıl olaraq inkişaf etdirirlər. Qeyd etmək lazımdır ki, ikitərəfli səmərəli əlaqələrin əsasını ən yüksək dövlət səviyyəsində qurulan açıq, konstruktiv və səmimi siyasi dialoq təşkil edir. Sizinlə mütəmadi görüşlərimizin gedişində siyasi-diplomatik, ticari-iqtisadi, mədəni-humanitar və sair sahələrdə ikitərəfli tərəfdaşlığa dair mühüm mövzular müzakirə edilir. Sözsüz ki, belə əlaqələrin nəticələri iki dövlətin hökumət və xarici siyasət idarələrinin sonrakı fəaliyyətinin predmetinə çevrilir. Mən bu kontekstdə Türkmənistanın və Azərbaycanın dövlət strukturlarının, yəni prezidentlər səviyyəsində əldə olunan razılaşmaların icrasına məsuliyyət daşıyan qurumların fəaliyyətinin aktivləşdirilməsini məmnuniyyətlə qeyd etmək istərdim. Bu, öz növbəsində, hər iki tərəfi Türkmənistan-Azərbaycan əməkdaşlığında böyük potensial imkanlardan istifadəyə yönəlmiş yeni ideyaların və təşəbbüslərin axtarılmasına və icrasına stimullaşdırmalıdır. İmzalanmış memorandumun əhəmiyyəti məsələsinə qayıdaraq, Sizin diqqətinizi bir daha ona yönəltmək istərdim ki, bu sənəd strateji istiqamətdə - enerji sahəsində Türkmənistan-Azərbaycan tərəfdaşlığında prinsipcə yeni mərhələ açır. Bunun üçün zəruri olan hər şey - həm siyasi iradə, həm texniki və texnoloji təchizatın yüksək səviyyəsi, yüksəkixtisaslı kadrlar və neft-qaz sahəsində zəngin iş təcrübəsi var. Lakin Xəzərdə birgə uğurlu fəaliyyətin əsas rəhni əsrlərboyu türkmən və Azərbaycan xalqlarında mövcud olan möhkəm qardaşlıq telləridir. Burada Xəzər regionunda möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraiti yaradılmasına Türkmənistanın və Azərbaycanın töhfəsini və səyini xüsusi vurğulamaq istəyirəm. Məhz bizim iki ölkənin yüksək siyasi və diplomatik fəallığı nəticəsində son onilliklərdə Xəzəryanı dövlətlərin mütəmadi əsasda Zirvə görüşlərinin və digər yüksək forumlarının keçirilməsi mümkün olub, Xəzəryanı ölkələrin indiki və gələcək tələblərinə cavab verən, Xəzər dənizində təhlükəsizlik, iqtisadiyyat və ekologiya kimi mühüm sahələrdə çoxtərəfli qarşılıqlı fəaliyyətin əsas parametrlərini müəyyən edən beynəlxalq hüquqi baza yaradılıb. Fikrimcə, bu, çox cəhətdən Türkmənistan ilə Azərbaycan arasında qarşılıqlı anlaşmanın yüksək səviyyəsi və Xəzər problemlərinə aid bütün məsələlərin həllinə bizim yanaşmalarımızın ümumiliyi sayəsində mümkün olub.

Mən Türkmənistan-Azərbaycan münasibətlərinin vəziyyətini bütövlükdə çox yüksək qiymətləndirirəm, ikitərəfli qarşılıqlı fəaliyyətin və tərəfdaşlığın səmərəliliyini və müsbət dinamikasını qeyd etmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizi bugünkü tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə bir daha möhkəm cansağlığı, çoxşaxəli dövləti fəaliyyətinizdə gələcək uğurlar, qardaş Azərbaycana sülh, xoşbəxtlik və firavanlıq arzu edirəm. Diqqətinizə görə bir daha təşəkkür edirəm. Əlbəttə, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Heydər oğlu Əliyevə bir daha söz vermək istərdim. Buyurun, qardaş.

**Prezident İlham ƏLİYEV** dedi:

- Sağ ol, əziz qardaş. Artıq qeyd etdik ki, bu gün bizim münasibətlərimizdə tarixi gündür. Əminəm ki, bugünkü imzalanma mərasimi regional əməkdaşlığın inkişafı üçün çox müsbət səmərəyə malik olacaq. Siz artıq qeyd etdiniz ki, Xəzəryanı ölkələrin əməkdaşlığı da çox dinamik, qarşılıqlı anlaşma və qarşılıqlı dəstək ruhunda inkişaf edir, bunun nəticəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Xəzəryanı ölkələr xoş məram, siyasi iradə nümayiş etdiriblər. Çoxillik uzun diskussiyalardan sonra enerji resurslarının mənimsənilməsi, habelə Xəzərin qorunması üzrə birgə fəaliyyət üçün ölkələrə yeni imkanlar açan Konvensiya razılaşdırılıb. Biz birgə səylərimizlə bundan sonra da xalqlarımıza bu qədər nemətlər bəxş edən bu nadir su hövzəsini qorumaq üçün nə lazımdırsa etməliyik. Bu gün imzalanma prosesini müşahidə edərək düşündüm ki, əcdadlarımız bugünkü mərasimi görsəydilər, yəqin ki, şad olardılar. Necə deyərlər, onların ruhu şaddır. Onlar bizə görə, iki qardaş xalqın əl-ələ, çiyin-çiyinə birlikdə inamla irəliləməsinə, bir-birini dəstəkləməsinə, öz xalqlarının gələcəyi naminə əməkdaşlıq etməsinə, bununla da ölkələrimizin hələ illər boyu, onilliklər boyu davamlı inkişafını təmin etmələrinə görə qürur duyardılar.

Bu gün onu da qeyd etmək istərdim ki, bugünkü mərasim ölkələrimizin müstəqilliyinin, suverenliyinin, iqtisadi potensialının möhkəmləndirilməsi üzrə çoxillik gərgin fəaliyyətinin nəticəsidir. Bu gün Türkmənistan və Azərbaycan beynəlxalq arenada tam əsasla müstəqil xarici və daxili siyasət barədə danışa bilən ölkələrdir. Təəssüf ki, artıq bu gün dünyada belə hallara az-az rast gəlirik. Bizim ölkələrimiz özlərini tamamilə təmin edən ölkələrdir. Onlar istər beynəlxalq kreditlərdən, istər xarici köməkdən, istərsə də xarici təsirin hər hansı başqa formalarından və növlərindən asılı deyil. Bu ölkələr öz milli, mənəvi, əxlaqi ənənələrinə möhkəm sadiqdirlər. Bu, bizi irəliyə aparan əsasdır.

Bu gün Türkmənistan və Azərbaycan nisbətən gənc müstəqil dövlətlərdir. Bizim müstəqil dövlətlərə çevrilməyimizdən hələ 30 il keçməyib, lakin bu illər ərzində çox böyük uğurlar qazana bilmişik. Məsələn, bu gün inamla irəliləyirik, sosial rifah, iqtisadi inkişaf, qlobal transmilli layihələr sahəsində çox mühüm məsələləri həll edirik. Ölkələrimiz investisiyalar üçün açıqdır. Xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırırlar. Ona görə ki, əmindirlər, onların vəsaitləri qorunacaq, bizim ölkələrdə siyasi sabitliyə əmindirlər, o da bu gün ən mühüm inkişaf amilidir. Sabitlik olmadan inkişaf mümkün deyil. Sabitlik tərəqqiyə, rifaha, investisiyalara, ən iri beynəlxalq şirkətlərin diqqətinə və bununla da ölkələrin beynəlxalq aləmdə rolunun, onların təsirinin möhkəmlənməsinə gətirib çıxarır. Bu gün ölkələrimizin həm tarixi, həm də mədəni baxımdan oxşarlığı, ortaq köklərimiz, ortaq dilimiz, ortaq dinimiz barədə danışarkən, biz, əlbəttə, bütün bu müsbət cəhətləri belə səmərəli əməkdaşlığa transformasiya etmişik. Beləliklə, bu gün biz, sadəcə, Xəzərdə bir yataq haqqında memorandum imzalamırıq, bu gün biz münasibətlərimizin gələcək uğurlu inkişafında çox mühüm addım atırıq.

Hörmətli Qurbanqulu Məlikquluyeviç, Sizi təbrik etmək, qardaş türkmən xalqına bir daha ən xoş arzularımı bildirmək, Sizə möhkəm cansağlığı, təşəbbüslərinizdə uğurlar arzu etmək istərdim. Abadlıq, şəhərsalma sahəsində çox böyük səylərinizi də qeyd etmək istərdim. Mən bilirəm ki, Siz həm Aşqabadda, həm də digər şəhərlərdə şəhərsalma layihələrinə şəxsən rəhbərlik edirsiniz. Buna görə də Sizin dostlarınız, qardaşlarınız kimi Aşqabada gələndə biz ürəkdən sevinirik ki, müasir, gözəl, sakinlər üçün rahat şəhər yaradılıb. Bu, Sizin ölkənin inkişafına yönəlmiş çoxillik səylərinizin və öz xalqınıza bağlılığınızın, ona sədaqətinizin nəticəsidir. Sonda bizim birliyimizi, bir növ təsdiqləyərək Türkmənistanda da aydın başa düşüləcək sözləri demək istəyirəm - yaşasın Azərbaycan-Türkmənistan dostluğu!

**Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV:** Çıxışınıza görə çox sağ olun, qardaş.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

# Vətən müharibəsində yaralanan və bu gün şəhidlik zirvəsinə ucalan Daxili Qoşunların hərbi qulluqçusu ilə vida mərasimi keçirilib

Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının hərbi qulluqçusu, çavuş Elşən Quluzadə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmancasına döyüşərkən ağır yaralandığına görə tibb müəssisəsinə yerləşdirilmişdi.



DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həkimlərin səylərinə baxmayaraq, çavuş Elşən Quluzadə yanvarın 21-də şəhidlik zirvəsinə ucalıb.

Şəhidimizlə vida mərasimində Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov və nazir müavinləri iştirak ediblər.

Şəhid Elşən Quluzadənin cənazəsi polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçularının müşayiəti ilə doğulub boya-başa çatdığı Füzuli rayonuna aparılaraq orada dəfn ediləcək.

# Milli Məclisin Səhiyyə komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

Yanvarın 21-də Milli Məclisin Səhiyyə komitəsinin yaz sessiyasında videokonfrans formatında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqədar şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, komitə sədri Əhliman Əmiraslanov iclası açaraq diqqətə çatdırıb ki, iclasın gündəliyinə 2020-ci ilin payız sessiyası dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat və komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planı ilə bağlı məsələlər daxil edilib.

2020-ci ilin payız sessiyası barədə hesabatı təqdim edən komitə sədri bildirib ki, bu müddətdə komitənin 10 iclası keçirilib, 14 məsələyə baxılıb. Belə ki, ötən sessiya ərzində "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi, "Tibbi sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və digər qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə edilib. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirələrində Səhiyyə komitəsi tərəfindən bir sıra məsələlərə toxunulub. Səhiyyə sahəsinə ayrılan vəsait kifayət qədər artırılıb.



İclasda qeyd edilib ki, bu il icbari tibbi sığortanın bütün ölkə ərazisində həyata keçirilməsi gələcəkdə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəlməsinə səbəb olacaq. Komitə sədri vurğulayıb ki, pandemiyanın dünyada tüğyan etdiyi vaxtda, Vətən müharibəsi şəraitində büdcədə səhiyyə üçün nəzərdə tutulan vəsaitin artırılması ölkə Prezidentinin bu sahəyə olan böyük diqqət və qayğısının nəticəsidir.

Məlumat verilib ki, hesabat dövründə komitəyə 238 ərizə və şikayət daxil olub. Daxil olan müraciətlərlə bağlı 211 məktub baxılması və lazımi tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara göndərilib. Vətəndaşlardan gələn müraciətlərdə müalicə və əməliyyatlarla bağlı yaranan maddi çətinliklər, ev və işlə təminat, əfv məsələləri qeyd olunub.

Onlayn iclasda çıxış edən deputatlar Soltan Məmmədov, Kamaləddin Qafarov, Müşfiq Məmmədli, İlham Məmmədov təqdim olunan hesabata münasibət bildirib, səhiyyə sistemindəki hazırkı durum barədə fikirlərini açıqlayıblar. Çıxışlarda icbari tibbi sığortanın həyata keçirilməsi, koronavirusla mübarizə, səhiyyə sahəsində professional birliklərin yaradılması, uşaqların sağlamlığının qorunması və digər önəmli məsələlər qeyd olunub. Deputatlar payız sessiyasının gərgin bir vaxta təsadüf etdiyini, eyni zamanda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şanlı Zəfərinin şahidi olduğumuzu vurğulayıb, bu münasibətlə Azərbaycan xalqına təbriklərini çatdıraraq şəhidlərimizi yad edib, qazilərimizin tezliklə sağalmalarını diləyiblər.

İclasda komitənin 2020-ci ilin payız sessiyasında fəaliyyəti məqbul hesab edilib.

Sonra Əhliman Əmiraslanov komitənin 2021-ci il yaz sessiyası üçün iş planını diqqətə çatdırıb. Bildirilib ki, sessiya ərzində Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələrinin, Milli Məclis deputatlarının, Ali Məhkəmənin, Baş Prokurorluğun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi layihələrin müzakirəsi, "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin hazırlanması nəzərdə tutulub.

Yaz sessiyasında koronavirus (COVID-19) infeksiyası ilə bağlı ölkədəki vəziyyət və görülən tədbirlər barədə, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar normativ-hüquqi aktlara dəyişikliklərin edilməsi, optika və optikaçılıq, ürək-damar sistemi xəstəlikləri ilə bağlı dinləmələrin keçirilməsi planlaşdırılıb.

Onlayn tədbirdə komitənin sədr müavini Rəşad Mahmudov, üzvləri Kamaləddin Qafarov, Məlahət İbrahimqızı, Soltan Məmmədov, Sədaqət Vəliyeva yaz sessiyasının iş planı barədə öz fikirlərini bildirib, bəzi təkliflər səsləndiriblər.

Deputatlar komitənin 2021-ci il yaz sessiyasının iş planını təsdiqləyiblər.

# Baş Prokurorluğun daha bir sosial şəbəkəsi rəsmi olaraq təsdiqlənib

Hazırda sosial şəbəkələr informasiya mübadiləsində ən önəmli vasitələrdən birinə çevrilib. Prokurorluq orqanlarının fəaliyyətinə dair məlumatların Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti tərəfindən operativ şəkildə əhaliyə, o cümlədən kütləvi informasiya vasitələrinə çatdırılmasını təmin etmək üçün "Facebook", "Instagram", "Twitter", "YouTube", "Telegram" sosial şəbəkələrindən istifadə olunur.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 21-də Azərbaycan Respublikası Baş Prokurorluğunun "Instagram" səhifəsi



(link: https://www.instagram.com/prokurorluq/) rəsmi olaraq mavi nişan vasitəsilə təsdiqlənib.

Xatırladaq ki, ötən il noyabrın 26-da isə Azərbaycan Respublikası Baş Prokurorluğunun "Facebook" səhifəsi - (link: https://www.facebook.com/prokurorluq/) rəsmi olaraq mavi nişan vasitəsilə təsdiqlənib.

"Verified Page", yeni təsdiqlənmiş səhifə mənasını bildirən mavi nişanın köməyi ilə orijinal səhifə saxta səhifələrdən ayırd edilir.

Məsələ ilə bağlı Baş Prokurorluğun Mətbuat xidməti ilə əlaqə saxlayan zaman qurumdan "Facebook" və "Instagram" səhifələrinin rəsmi olaraq mavi nişan vasitəsilə təsdiqlənmələrinə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti tərəfindən kömək göstərildiyi bildirilib.

# "Regional İnkişaf" İctimai Birliyi yeni portal istifadəyə verib

"Regional İnkişaf" İctimai Birliyi (RİİB) müxtəlif sahələr üzrə təkliflər təqdim etmək imkanı yaradan www.teklifimvar.az portalını istifadəyə verib.




RİİB-dən AZƏRTAC-a bildiriblər ki, portal əhalini ölkənin sosial-iqtisadi, ictimai və mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğu sahəsində fəal iştiraka təşviq etməklə yanaşı, ictimai nəzarətin gücləndirilməsinə töhfə məqsədi daşıyır.

İnternet resursunda qeydiyyatdan keçən istifadəçilərin təklifləri araşdırıldıqdan və seçildikdən sonra onların reallaşdırılması istiqamətində aidiyyəti qurumlarla birgə müvafiq tədbirlər həyata keçiriləcək. Nəticələrə dair məlumatlar portalda yerləşdiriləcək və bununla da ictimaiyyətin prosesi izləməsi mümkün olacaq. Xatırladaq ki, "Regional İnkişaf" İctimai Birliyi ictimai nəzarətin həyata keçirilməsi, əhalinin müxtəlif müraciətlərinin araşdırılması, onların aidiyyəti qurumlarla əməkdaşlıq şəraitində həlli, eləcə də elm, təhsil, səhiyyə, sosial, ekologiya, turizm, idman və digər sahələrdə layihələrin icrası istiqamətində fəaliyyət göstərir.

# Azərbaycan Ordusunun əsgəri mina partlayışı nəticəsində həlak olub

Yanvarın 21-də Azərbaycan Ordusunun hərbi qulluqçusu, əsgər Cavadov Rəşad Fərzəli oğlu mina partlayışı nəticəsində həlak olub.

Faktı Müdafiə Nazirliyindən AZƏRTAC-a təsdiqləyiblər.

Hadisə ilə bağlı araşdırma aparılır.

# Türkiyəli psixoloqlardan ibarət nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Vətən müharibəsindən sonra mənəvi-psixoloji problemlər yaşayan vətəndaşların psixoloji reabilitasiyasının səmərəli təşkilinə yardım etmək üçün Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə qardaş Türkiyədən ölkəmizə gələn 20 nəfər peşəkar klinik-psixoloq və psixoterapevtdən ibarət nümayəndə heyəti yanvarın 21-də Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri və onları müşayiət edən Fövqəladə Hallar Nazirliyinin Fövqəladə Halların Nəticələrinin Aradan Qaldırılması İşinin Təşkili Baş İdarəsinin rəisi general-mayor Elşad Hüseynov, Tibbi və Psixoloji Yardımın Təşkili şöbəsinin rəisi, tibb xidməti mayoru Xanım Sofiyeva əvvəlcə Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edib, məzarı üzərinə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn nümayəndə heyəti ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb.

Daha sonra Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidə ziyarət olunub.

Fövqəladə Hallar Nazirliyinin Tibbi və psixoloji yardımın təşkili şöbəsinin rəisi, tibb xidməti mayoru Xanım Sofiyeva jurnalistlərə müsahibəsində deyib ki, təcrübəli psixoloqlar əvvəlcə paytaxtda yerləşən tibb müəssisələrində xidmət göstərəcəklər. Sonrakı müddətdə isə həkim heyəti müharibə dövründə mülki şəxslərin daha çox psixoloji travmaya məruz qaldığı şəhər və rayonlara gedəcəklər. Heyət üzvlərinin orada şəhid ailələri, qazilər və müharibənin fəsadlarından əziyyət çəkən vətəndaşlara xidmət göstərməsi nəzərdə tutulub. Ümumiyyətlə, bütün psixoloji xidmətlər təmənnasız göstəriləcək.

Nümayəndə heyətinin rəhbəri Selçuk Demirtaş isə jurnalistlərə müsahibəsində qeyd edib ki, 44 günlük Vətən müharibəsində işğal altındakı Qarabağı azad edən Azərbaycan Ordusunun gücünü, xalqının cəsarətini bütün dünyaya göstərdi. Buna görə Azərbaycan Prezidenti İlham Əliyev və rəşadətli Azərbaycan Ordusuna minnətdarlığımızı bildiririk. İşğal altındakı torpaqların azad edilməsi bizi və türk xalqını son dərəcə sevindirdi. Təəssüf ki, bu müharibədə azərbaycanlı qardaşlarımız da şəhid olublar. Müharibədən sonra insanlarda müəyyən mənəvi-psixoloji problemlər özünü göstərir. Bu problemləri yaşayan vətəndaşların psixoterapevtik müalicəsinin təşkili məqsədilə Bakıya gəlmişik. Həkimlərimiz bir ay ərzində Azərbaycanda şəhid ailələrinin üzvlərinə, qazilərə və müharibədən zərər çəkmiş şəxslərə yardım etmək üçün əllərindən gələni edəcəklər. Rəhbərlik etdiyim nümayəndə heyəti Türkiyənin müxtəlif bölgələrindən təcrübəli psixoloq-mütəxəssislərdən ibarətdir.

O bildirib ki, Azərbaycanın Vətən müharibəsindən sonra Türkiyənin müxtəlif bölgələrindən azərbaycanlı qardaşlarımızın psixoloji reabilitasiyasının səmərəli təşkilinə yardım etməyə gəlmək istəyən həkimlərimiz, psixoloqlarımız, psixiatrlarımız könüllü müraciət ediblər. Bütün sahələrdə olduğu kimi, bu sahədə də Türkiyə qardaş Azərbaycanın yanındadır və ona yardım etməyə hazırdır.

"Nümayəndə heyətinə İstanbul, Ankara, Bursa, Samsun, Adana, Urfa, Elazığ vilayətlərindən könüllü müraciət etmiş həmkarlarımız daxildir. Məqsədimiz Azərbaycandakı psixoloq-mütəxəssislərlə birgə təcrübə mübadiləsi aparmaq, təlimlər keçmək, buradakı həmkarlarımıza kömək etməkdir. Biz Bakıda və regionlarda şəhid ailələrinə və qazilərə psixoloji dəstək göstərmək üçün birgə fəaliyyət göstərəcəyik. Türkiyədə bu sahədə böyük təcrübəmiz var" deyə Selçuk Demirtaş vurğulayıb.

# Qalib Azərbaycan Qarabağın dirçəldilməsi ilə məşğuldur

## Məğlub Ermənistan isə əhalisinin xaricə növbəti köçünün qarşısını almaq üçün yollar axtarır

Xəbər verildiyi kimi, yanvarın 11-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə ikitərəfli və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə üçtərəfli görüşləri baş tutub. Görüşlərin yekunu ilə bağlı üçtərəfli bəyanat imzalanıb.

Bəri başdan deyək ki, üçtərəfli görüş ermənilərin son ümidlərini də puç etdi. Sirr deyil ki, onlar Rusiya paytaxtında keçirilən görüşlə bağlı "bəlkə də qaytardılar" xülyasına düşmüşdülər. Ümid edirdilər ki, hərb meydanında itirdiklərini bəlkə diplomatiya cəbhəsində qaytara bildilər. Ancaq belə olmadı. Mətbuata açıqlanan birgə bəyanatdan məlum oldu ki, N.Paşinyanın qaldırdığı Dağlıq Qarabağın statusu məsələsi barədə görüşlərdə heç bir söhbət getməyib. Bununla belə, Paşinyan bildirib ki, bu məsələni həmsədr dövlətlər olan ABŞ və Fransa ilə müzakirə edəcək.

Birincisi, Fransanın xarici işlər naziri bu yaxınlarda bəyan etmişdir ki, onun hökumətinin əsas məqsədi Azərbaycanla korlanmış münasibətləri düzəltməkdir. ABŞ-ın başı isə seçkilərdən sonra baş verən qarşıdurmanın aradan qaldırılmasına qarışıb.

İkincisi, bu görüşdən sonra bir daha aydın oldu ki, Nikol Paşinyan siyasətdə piyadadır. O hələ nəyin baş verdiyini başa düşməyib. Anlasaydı, bilərdi ki, onun gözlədiyi qatar iki aydan çoxdur gedib.

O ki qaldı əsirlərin dəyişdirilməsinə, Paşinyan bu məsələdə də haqsızdır. Çünki Azərbaycan noyabrın 26-da, yəni məlum saziş imzalanandan sonra Ermənistandan ölkəmizə göndərilən silahlıları beynəlxalq qanunlara görə terrorçu hesab edir və onlar törətdikləri konkret cinayətlərə görə cavab verməlidirlər.

Ümumiyyətlə, ermənilərin bütün məğlubiyyətləri onların "Böyük Ermənistan" qurmağa hesablanmış, əsrləri aşan millətçilik ideologiyası ilə bağlıdır. Onlar bu ideologiyanı bir zamanlar sığındıqları Türkiyədə həyata keçirməyə cəhd göstərdilər. Osmanlı imperiyasının süqutunu tarixi fürsət bilib Türkiyəyə qarşı xəyanət etdilər. Lakin istədiklərinə nail ola bilmədilər.

Əvəzində tarixi Azərbaycan torpaqlarına köçərək öz qanlı əməllərini davam etdirməyə qərar verdilər. Amma bu dəfə istədikləri alındı. Çar və sonradan bolşevik Rusiyasının köməyi ilə əzəli Azərbaycan torpağında özlərinə Ermənistan dövləti yaratdılar. Ancaq bununla kifayətlənmədilər. Azərbaycanla Ermənistan SSRİ-nin tərkibində olduğu illərdə onlar Dağlıq Qarabağın Ermənistana verilməsi tələbi ilə çıxış etdilər. Təbii ki, onlara bu cəsarəti verən SSRİ-nin rəhbəri Qorbaçov idi.

Məhz onun sayəsində cəzasız qalan ermənilər Dağlıq Qarabağ və ətraf rayonları işğal edib yerli əhalini doğma yurdlarından qovdular. Və bununla Azərbaycanın 20 faiz ərazisinin təxminən 30 illik işğal dövrü başladı.

Ta keçən il sentyabrın 27-dək. Həmin gün növbəti erməni təcavüzündən sonra işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda əks-hücum əməliyyatı başlandı. 44 günlük döyüşlərdə işğalçı Ermənistan ordusu darmadağın edildi, tarixi Zəfər qazandıq. Bununla ermənilərin Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılması iddiasına son qoyuldu.

Hazırda Ermənistan bu acı məğlubiyyətdən sarsılmış vəziyyətdədir. Qələbəmiz Ermənistan cəmiyyətində məyusluq və parçalanmaya səbəb olub. İndi ermənilər "firavan vətən" axtarışına çıxmağa hazırlaşırlar. Koronavirus pandemiyasının başa çatmasını gözləyirlər, sərhədlərin açılmasının intizarındadırlar.

Ermənistana rəhbərlik edənlər də bunu yaxşı başa düşürlər. Onlar böyük köçün qarşısını almaq üçün müxtəlif üsullara əl atırlar. Dünyada may ayında koronavirus təhlükəsinin azalacağı barədə qəti fikir mövcud olsa da, Ermənistanda indidən cari il iyulun 11-dək karantin rejiminin davam etdirilməsi barədə qərar verilib. Bunun iki səbəbi var. Birincisi, N.Paşinyan bu yolla kütləvi etiraz tədbirlərinin qarşısını almaq istəyir. İkincisi isə, Ermənistan iqtidarı bununla ölkədən başlanacaq böyük köçün qarşısını almağa çalışır.

Bu gün Ermənistanda əhali arasında ən çox müzakirə olunan mövzu ölkədən mühacirət etməkdir. "Böyük Ermənistan" yaratmaq xəyalları puç olub, işğal etdikləri Azərbaycan torpaqlarından birdəfəlik qovulublar, Ermənistanda yaşanılası deyil. Daha nə etməlidirlər ki?!

Şübhəsiz ki, bu köçhaköçə Qarabağda yaşayan ermənilər də qoşulacaq. Onların əlində "müharibədən ziyan çəkmiş tərəf" kimi bəhanə də var. Bu, onlara inkişaf etmiş Avropa ölkələrində məskunlaşmaq üçün yaxşı fürsətdir. Onsuz da bu vətənsizlər dünyaya səpələnməyə adətkardırlar.

Moskvada üç ölkənin rəhbərlərinin görüşü Azərbaycanın qalib, Ermənistanın isə məğlub ölkə olduğunu bir daha göstərdi. İmzalanan bəyanatda əksini tapan 4 bəndin hər birində ölkəmizin iqtisadi və siyasi maraqları nəzərə alınıb. Bu bəyanatın bəndlərinə diqqət yetirdikdə görürük ki, Prezident İlham Əliyev hələ Rusiya paytaxtına getməmişdən əvvəl ölkəmizin maraqlarının nədən ibarət olduğunu demişdisə, onlar həmin sənəddə öz əksini tapıb. Naxçıvan Muxtar Respublikasına dəhlizin açılması böyük istəyimiz idi. Bu, həm də region ölkələrinin marağındadır. Mehri yolunun açılması ilk növbədə Azərbaycanla Türkiyə arasında bağları daha da möhkəmləndirəcək və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın nəqliyyat blokadasına son qoyacaq.

44 günlük müharibədən sonra üç ölkə arasında iqtisadi və regional əməkdaşlıq məsələlərini nəzərdə tutan Moskva bəyanatının qəbul olunması ilə bir daha təsdiq edildi ki, regionun gələcəyi yalnız perspektivə istiqamətlənmiş məsələlərin həyata keçirilməsi ilə bağlıdır.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Liviyada həbsdə olan vətəndaşlarımız vətənə qayıdıblar

Liviya Dövlətində həbsdə olan vətəndaşlarımız Elmixan Bağırov və Əliağa Babayev bu il yanvarın 21-də vətənə geri qayıdıblar. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məlumatda deyilir: "Bildirmək istərdik ki, 2016-cı ilin mart ayında Türkiyə Respublikasında qeydiyyatda olan şirkətə məxsus olan və Syerra-Leone bayrağı altında üzən gəmi Liviya-Malta-Türkiyə istiqamətində hərəkət edən zaman Liviya Dövlətinin sahil qüvvələri tərəfindən saxlanılıb və üçü Azərbaycan Respublikası vətəndaşı olmaqla 12 nəfərdən ibarət gəmi heyəti neft məhsullarının qaçaqmalçılığına görə 5 il müddətinə həbs olunublar. Əfsuslar olsun ki, gəminin matrosu Elşad Hüseynov Liviyada dünyasını dəyişib.

Həbsdə olan vətəndaşlarımız - gəmi kapitanı Elmixan Bağırov və matros Əliağa Babayevin ölkəyə geri qaytarılması ilə bağlı Azərbaycan Respublikası hökuməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Liviya Baş Prokurorluğunun 2020-ci il 29 dekabr tarixli qərarı ilə sözügedən şəxslər həbsdən azad edilib və müvəqqəti saxlama mərkəzinə yerləşdiriliblər.

Vətəndaşlarımızın təcili təxliyəsi üçün Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının İstanbul şəhərindəki Baş konsulluğu tərəfindən görülmüş zəruri tədbirlərin nəticəsində Elmixan Bağırov və Əliağa Babayevin 2021-ci ilin 21 yanvar tarixində Tripoli-İstanbul-Bakı reysi ilə vətənə geri qayıtması mümkün olub. Təxliyə prosesi Türkiyə Respublikası və Liviya Dövlətinin yardımı, Ukraynanın əlaqələndirici fəaliyyəti və gəmi şirkətinin dəstəyi nəticəsində həyata keçirilib".

## İlin uğurlu yekunları

# Azərbaycanın ən şərəfli dövrü

## Prezident İlham Əliyevin böyük qələbəsi və uğurlu fəaliyyəti nəticəsində ötən il tariximizdə möhtəşəm zəfər, mühüm nailiyyətlər, davamlı quruculuq mərhələsi kimi əbədiləşdi

*Əvvəli 1-ci səh.*

### Növbəti mükəmməl Azərbaycan nümunəsi

Ötən il bütün yönümlərdə Azərbaycan Respublikası üçün uğurlu olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə başlamış genişmiqyaslı xarakter daşıyan islahatlar respublikada yüksək dayanıqlı iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşkili üçün zəmin yaratdı. İslahatlarla qarşıya qoyulan hər bir vəzifənin, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması isə xalq-iqtidar birliyini daha da möhkəmləndirdi, əhalinin Prezident İlham Əliyev ətrafında daha sıx birləşməsini təmin etdi. Dövlət başçısının rəhbərliyi ilə gerçəkləşdirilən mükəmməl sosial-iqtisadi inkişaf strategiyası nəticəsində islahatların davamlılığı təmin edildi və iqtisadi inkişafın sürətləndirilməsi nəticəsində əhalinin rifahı daha da yaxşılaşdı.

Ötən il fevral ayından başlayaraq ölkəmiz çətin sınaqla üzləşmişdi. Mənşəyi məlum olmayan, dünya səhiyyəsinin indiyə qədər rastlaşmadığı virusun yayılma miqyasının qarşısını almaq olduqca çətin, hətta mümkünsüz görünürdü. Təsadüfi deyil ki, iqtisadi baxımdan güclü dövlətlərin bir çoxu COVID-19-un törətdiyi fəsadları müşahidə etməklə kifayətləndi. Vaxtında çevik tədbirlər görə bilmədiklərindən həmin ölkələrdə hələ də virus hər gün onlarca insanın həyatına son qoyur, yoluxanların sayı artmaqda davam edir.

Azərbaycan ölkə Prezidenti İlham Əliyevin tapşırığı əsasında, pandemiyaya qarşı mübarizəni əhalinin həyatının və sağlamlığının qorunması, sosial müdafiəsinin təmin olunması və iqtisadi fəallığının inkişaf etdirilməsi istiqamətlərində qurmaqla müsbət təcrübəyə nail oldu.

Pandemiya bəşəriyyətə gətirdiyi fəlakətlərlə yanaşı, dövlətlərin reallıqda nəyə qadir olduqlarını da üzə çıxardı. Artıq saxta piarlar, yalançı "inkişaf tempi" və sair işə yaramadı. Məlum oldu ki, dünya ölkələrinin böyük əksəriyyəti təkbaşına pandemiyanın öhdəsindən gəlmək gücündə deyil. Onlar pandemiyanın vurduğu ağır iqtisadi zərbənin təsirindən çıxmaq üçün beynəlxalq maliyyə qurumlarının qapısını döyməyə başladılar. Azərbaycan isə əksinə, Ümumdünya Səhiyyə Təşkilatının COVID-19 əleyhinə mübarizə fonduna 10 milyon ABŞ dolları həcmində ianə ayırdı. Bundan başqa, 5 milyon ABŞ dolları həcmində vəsaiti Qoşulmama Hərəkatının daha çox ehtiyacı olan dövlətləri üçün ayırdı. Bunlarla yanaşı, 30-dan çox ölkəyə də humanitar yardım göstərdi.

Respublikamız pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərməsi üçün dövlət büdcəsindən təqribən 2,5 milyard manat vəsait ayırdı. Dövlət başçısının tapşırığı ilə dəstək tədbirlərinin genişləndirilməsi nəticəsində bu vəsaitin məbləği 3,5 milyard manatı üstələmişdir. Təkcə məşğulluğa və sosial rifaha dəstək məqsədilə 600 milyon manat vəsait ayrıldı.

600 min işsiz insan, o cümlədən qeyri-formal məşğulluq sahəsində fəaliyyət göstərən və müvəqqəti işini itirən, aztəminatlı təbəqəyə məxsus olanlar sərtləşdirilmiş karantin müddətində 190 manat müavinət alır.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkə vətəndaşlarının, o cümlədən həmkarlar ittifaqı üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması naminə qəbul etdiyi qərarlarını, xalqın sağlamlığı və xoş güzəranı ilə əlaqədar atdığı bütün addımları Azərbaycan Həmkarlar İttifaqları yüksək qiymətləndirir. Bu münasibətlə AHİK-in İcraiyyə Komitəsi öz iclasında qəbul etdiyi müraciətdə möhtərəm Prezidentə dərin minnətdarlığını bildirmiş və hər zaman onun yanında olduğunu bəyan etmişdir.

Dövlət başçısının insanların rifahı naminə göstərdiyi müstəsna fəaliyyəti, mərhəmət, nəciblik kimi ali insani keyfiyyətlərə malik Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa müraciəti, "Instagram" səhifəsində etdiyi səmimi paylaşımlar mənəvi dəstəyin parlaq nümunələridir. Mehriban xanim müraciətində müdrik xalqımızın ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət kimi gözəl xüsusiyyətləri sayəsində bu ciddi çağırışın öhdəsindən gələ biləcəyimizə əminliyini bildirmişdi.

### Biz birlikdə güclüyük!

Ölkəmizin digər müvafiq qurumları ilə yanaşı, koronavirus infeksiyasının aradan qaldırılmasına yardımçı olmaq üçün AHİK və üzv təşkilatları da imkanlarını səfərbər edərək müəyyən addımlar atmışdır. İlk növbədə, pandemiya dövründə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı Prezident İlham Əliyevin qətiyyətli addımlarını dəstəkləyərək işəgötürən tərəfindən işçilərin sayının əsassız azaldılmasının qarşısının alınması məqsədilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası daxil olmaqla, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası adından işəgötürənlərə bildiriş göndərilmişdir.

Martın 23-də AHİK-in üzv və tabeliyində olan təşkilatların rəhbərləri ilə keçirilən müşavirədə profilaktik tədbirlərin əlaqələndirilməsi, görülən işlər barədə məlumatların mütəmadi toplanması və maarifləndirici işlərin təşkili üzrə İdarəetmə Qrupu (Operativ Qərargah) yaradılmışdır.

AHİK-in İcraiyyə Komitəsinin aprelin 23-də keçirilən onlayn iclasında qeyd edilmişdir ki, həmkarlar ittifaqları bu çətin günlərdə ölkə Prezidentinin yanında olmalı, imkanlar çərçivəsində pandemiya şəraitində aztəminatlı ailələrin ehtiyaclarının ödənilməsi üçün bütün imkanlarını səfərbər etməlidir.

AHİK-də koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində həmkarlar ittifaqı əməkdaşları ilə operativ əlaqələr qurulması üçün xüsusi SMS Məlumatlandırma Sistemi yaradılmışdır. Sistem xüsusi servis kanalla təchiz edilmişdir. Həmkarlar ittifaqlarında verilən qərarlar, tapşırılan işlər dərhal lazımi şəxslərin mobil telefonlarına ötürülür. Bu isə xüsusi karantin şəraitinin məsafədən işləmə prinsiplərindəndir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən pandemiya ilə bağlı üzv təşkilatlara, şəhər, rayon təşkilatlarına görülməli işlərlə əlaqədar tövsiyələr verilmiş və vəzifələri müəyyənləşdirilmişdir.

AHİK və onun üzv təşkilatları tərəfindən pandemiya dövründə ümumilikdə 6.065.988 manat məbləğində maddi və ərzaq yardımları göstərilmişdir. O cümlədən AHİK Koronavirusla Mübarizəyə Dəstək Fonduna 250 min manat və Naxçıvan Muxtar Respublikasında koronavirusla mübarizəyə dəstək üçün 110 min manat, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyin hesabına 205 min manat vəsait köçürmüş, 54.328 aztəminatlı ailəyə 1.517.825 manatlıq yardım etmiş, 76 şəhər və rayonda yaşayan 3900 ailəyə 68 ton ərzaq sovqatları paylamışdır. Yaşı 65-dən çox olan 45.919 nəfər ehtiyac sahiblərinə, imkansız həmkarlar ittifaqı üzvlərinə 3.152.625 manat məbləğində maddi yardım göstərilmiş, karantin rejimində istifadə edilməsi üçün həmkarlar ittifaqı təşkilatları üzvlərinə 936.628 manatlıq qoruyucu vasitələr paylanmışdır. Həmkarlar ittifaqı təşkilatlarının rəhbər işçiləri öz əməkhaqlarından Koronavirusla Mübarizə Fonduna ümumilikdə 458.920 manat vəsait köçürmüşlər.

Koronavirusla mübarizədə əsas ağırlığın səhiyyə işçilərinin üzərinə düşdüyünü nəzərə alan sahə həmkarlar ittifaqı bu kateqoriyadan olan işçilərin pandemiya dövründə sosial problemlərinin həllinə xüsusi diqqət yetirmişdir. Səhiyyə sahəsində fədakarcasına çalışan 7101 tibb işçisi ailəsinə 216.187 manat, 16.834 nəfər tibb işçisinə isə 1.102.280 manat maddi yardım edilmişdir. 191.404 manatlıq qoruyucu vasitə paylanmışdır. Koronavirus pandemiyası dövründə həmkarlar ittifaqları tərəfindən əhatə olunan üzvlərin və ölkə vətəndaşlarının sayı 100 mindən artıq olmuşdur.

Həmkarlar ittifaqları təşkilatları hazırda Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərar və göstərişlər əsasında öz işini qurmaq üçün müvafiq addımlar atırlar. Həmkarlar ittifaqı üzvləri qoyulan karantin rejiminə ciddi əməl etməklə bu qaydalara əməl olunmasına daha ciddi nəzarət olunmasına, pandemiya dövründə işçilərin sosial-iqtisadi hüquqlarının qorunmasına, bu sahədə onların sosial problemlərinin həllinə, məşğulluq məsələlərinə diqqəti artırmışlar. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi, "yeganə yolumuz insanları qorumaq, yoluxmaların sayını azaltmaq, xəstəliyin geniş vüsət almasına yol verməmək və beləliklə, vətəndaşlarımızı, dövlətimizi bu vəziyyətdən xilas etməkdir".

### Qüdrətli Sərkərdənin böyük Zəfəri

Hər birimiz Qələbə sevincini yaşayırıq. Uzun həsrətdən sonra işğal altında olan torpaqlarımızın azadlığını görmək, Azadlıq meydanında Zəfər paradını izləmək xalqımız üçün çox sevindirici və qürurverici hissdir. Müzəffər Ordumuzun 44 günlük müharibədə gücünü və qəhrəmanlığını görmək hamımıza nəsib oldu. Bunları bizə bəxş edən, qatı düşmənə qarşı amansız döyüşlərdə qəhrəmanlıq göstərən Ordumuz və adını tariximizin səhifələrinə qızıl hərflərlə yazan Ali Baş Komandanımız İlham Əliyevdir.



Ordumuz Ali Baş Komandanın əmrlərini fədakarlıqla yerinə yetirərək tarixi qələbə qazanmışdır. Azərbaycanın şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsi və ordumuzun şücaəti sayəsində torpaqlarımız işğaldan azad edilmişdir. Biz bu müharibəni şəhidlərimizin qanıcanı bahasına, hərbçilərimizin rəşadəti hesabına qələbə ilə başa çatdırmışıq. Vətənin cəsur oğulları düşmənə qarşı bir nəfər kimi silaha sarılıb layiqli mübarizə aparmış, qələbəmizin qazanılmasında böyük qəhrəmanlıq göstərmişdilər.

Möhtəşəm hərbi zəfərimiz sayəsində siyasi müstəvidə də qələbənin qazanılması təmin edilmişdir. Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyev dünyanın taleyini həll edən böyük dövlətlərin təzyiqlərinə qarşı öz yüksək intellekti, məntiqli diplomatiyası ilə sipər çəkdi, Qafqazda yeni reallıq yaratdı.

Birinci vitse-prezident Mehriban Əliyevanın bu çətin günlərdə ölkə Prezidenti ilə çiyin-çiyinə durması, işğaldan azad olunmuş torpaqlarımızdan dünyaya mesajlar verməsi, qazilərimizə göstərdiyi ana şəfqəti hamını ruhlandırdı.

Ermənistanın təxribatı nəticəsində sentyabrın 27-dən etibarən başlayan "Dəmir yumruq" əməliyyatı Azərbaycanın əsl hərbi qüdrətini, yüksək döyüş bacarığını nümayiş etdirərək Ermənistan silahlı qüvvələrini diz çökdürdü.

Döyüşlər getdiyi müddətdə Ermənistanın siyasi və hərbi rəhbərliyinin göstərişi ilə bütün beynəlxalq konvensiya və qanunlara zidd olaraq cəbhə xəttindən xeyli uzaqda olan Gəncə və Bərdə şəhərlərinin, Tərtər, Goranboy, Naftalan, Ağcabədi, Abşeron, Xızı, Kürdəmir və digər şəhər və kəndlərin raket atəşinə tutulması nəticəsində 94 nəfər mülki əhali, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 400 nəfərdən çoxu yaralanmış, 5 mindən çox ev tamamilə dağıdılmış və ya ciddi zədə almışdır. Azərbaycan Ordusu isə bunun əksinə olaraq yalnız Ermənistanın legitim hərbi nöqtələrinə atəş açaraq onları sıradan çıxartmışdı. Az müddətdə Azərbaycan Ordusu ermənilərin 30 il ərzində qurduğu istehkamları darmadağın edərək, uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etmişdi.

Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük İkinci Qarabağ müharibəsində minlərlə vətən övladı doğma torpaqlarımızın hər qarışı uğrunda son damla qanına qədər döyüşərək əsl qəhrəmanlıq nümunələri göstərdilər. Vətən uğrunda canlarından keçən 2858 igidin qanı yerdə qalmadı. Qəhrəman Ordumuz bütün şəhidlərin, o cümlədən Xocalı soyqırımının qisasını aldı, düşməni darmadağın etdi. Torpaqlarımız 30 illik işğaldan sonra vətənə qovuşdu.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ərazi bütövlüyümüzün təmin edilməsi yönündə öz vəzifəsini layiqli şəkildə yerinə yetirdi. Nikol Paşinyan noyabrın 10-da Ermənistanın kapitulyasiyasını qəbul etməklə üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qaldı.

Azərbaycan və Rusiya prezidentləri, habelə Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanat ölkəmizin öz torpaqlarını işğaldan azad etmək uğrunda apardığı Vətən müharibəsinin Azərbaycanın tam qələbəsilə başa çatmasını hüquqi cəhətdən təsdiq etməklə yanaşı, həm də özündə müharibədən sonrakı dövr üçün regionun iqtisadi inkişafına dair mühüm məqamlar əks etdirir. O cümlədən bölgədə nəqliyyat əlaqələrinin bərpası və inkişafı məsələsinə bu sənəddə xüsusi diqqət ayrılıb. Bəyanatın 9-cu maddəsində qeyd olunur ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Bu da o deməkdir ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

2021-ci il yanvarın 11-də Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən növbəti görüş də iki ay öncə imzalanmış üçtərəfli bəyanatın müddəalarından irəli gələrək, regionda dinc həyatın və iqtisadi inkişafın təmin olunması istiqamətində atılacaq növbəti addımların birlikdə müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir.

Moskva görüşünün nəticəsi olaraq imzalanmış yeni bəyanat sözsüz ki, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, bölgənin iqtisadi inkişafına xidmət edəcək. Görüşün mühüm nəticələrindən biri "Şərq-Qərb nəqliyyat dəhlizi"nin tərkib hissəsi kimi "Mehri dəhlizi"nin açılması olacaq ki, bu da ilk növbədə Naxçıvana və sonra da qardaş Türkiyəyə dəmir yolunun açılması deməkdir. Əlbəttə ki, bu layihələrin reallaşması ilə Azərbaycanın geoiqtisadi mövqeləri daha da güclənəcək. Həm də bu kommunikasiya xətləri təkcə Azərbaycan üçün deyil, eyni zamanda region ölkələrinin hamısı üçün böyük əhəmiyyət kəsb edəcək.

Ümumiyyətlə, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbə bütün Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratmış oldu. Bu reallıqlardan ən önəmlisi də budur ki, Azərbaycan xalqı artıq öz torpaqlarına qayıdıb və bu qayıdış əbədidir. Bu reallıqla barışmaq istəməyən, hələ də tarixin təkərini geri döndərmək kimi boş ümidlərindən əl çəkməyən ünsürlərə isə ən gözəl cavabı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müqəddəs üçrəngli bayrağımızı qaldırdığı Şuşa şəhərində etdiyi çıxışlarında vermişdir: "Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik. Əgər kimsə revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Azərbaycanın dəmir yumruğu düşmənin belini qırıb, lazım olarsa, bir daha qırar".

### İlham Əliyev Qarabağı yenidən cənnətə çevirəcək

Vətən savaşından sonra ən mühüm hadisələrdən biri də Ali Baş Komandanın işğaldan azad olunmuş bölgələrə səfərləri oldu. Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan səfərlərindən sonra möhtərəm Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfərləri də olduqca əhəmiyyətli idi.

Dövlət başçımızın indiyədək işğaldan azad edilmiş dügər rayon və şəhərlərimizə etdiyi səfərləri kimi, Şuşaya bu səfəri də Ali Baş Komandanın ürəyində yaşatdığı sonsuz Vətən sevgisinin və xalqa olan bağlılığının daha bir təcəssümüdür. Eyni zamanda ölkə Prezidentinin yanvarın 11-də keçirilmiş məlum Moskva görüşündən dərhal sonra ailəsilə birlikdə Şuşaya səfər etməsi Qarabağın əsl sahibinin kim olduğuna dair bütün dünyaya ünvanlanmış növbəti mesaj kimi qiymətləndirilməlidir.

Otuz il Azərbaycan ərazilərini işğal altında saxlamış erməni qəsbkarları bütün dünyaya Qarabağın, o cümlədən Şuşanın erməni torpaqları olduğuna dair saxta məlumatlar yaymaqla məşğul oldular. Lakin möhtərəm Prezidentin də çıxışında qeyd etdiyi kimi, onlar ötən müddət ərzində bu torpaqlarda bir daşı belə daş üstünə qoymadılar. Əksinə, uzun illər boyunca xalqımızın bu torpaqlarda qurub-yaratdığı evlər, muzeylər, məscidlər, tarixi-mədəni abidələr ermənilər tərəfindən dağıdıldı, viran qoyuldu, talan edildi. Çünki bu yerlərin onlara aid olmadığını və gec-tez qovulacaqlarını hamıdan yaxşı elə ermənilər özləri bilirdilər. Əlbəttə ki, torpağın əsl sahibi belə etmir. Torpağın əsl sahibi həmin torpaqda yollar çəkir, binalar tikir, qurub-yaradır, layihələr həyata keçirir, insanların firavan gələcəyini təmin etmək üçün əməli iş görür. Necə ki, Prezident İlham Əliyev Şuşa şəhərinə səfərindən öncə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu. Möhtərəm Prezident dedi ki, Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına yol çəkiləcək.

Vətən müharibəsinin Azərbaycanın tarixi qələbəsilə başa çatmasından cəmi iki ay vaxt keçməsinə baxmayaraq, artıq torpaqlarımıza böyük qayıdış başlayıb və möhtəşəm quruculuq işlərinə, o cümlədən ölkə Prezidenti tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verilib. Böyük qürur doğuran önəmli məqamlardan biri də budur ki, Şuşanın işğalı zamanı Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı erməni vandalları tərəfindən güllələnmiş və sonradan Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində Bakıya gətirilmiş büstləri də Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

Bu gün artıq ölkəmizin inkişaf tarixində tamamilə yeni bir mərhələ başlayır. Heç şübhəsiz, bu mərhələdə işğaldan azad edilmiş ərazilərimizin yenidən həyata qaytarılması Azərbaycanın siyasi-iqtisadi suverenliyinin daha da gücləndirilməsi yönümündə mühüm amillərdən biri kimi çıxış edəcək. Tezliklə bu bölgələrdə yenidən məskunlaşma həyata keçiriləcək, insanlarımızın layiqli yaşayışı və ümumi iqtisadi fəallıq təmin ediləcək. Qarabağda və ətraf rayonlarda həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarının daha da möhkəmləndirilməsinə xidmət edəcək.

Əlbəttə ki, bu quruculuq işlərinə dəstək vermək hər bir azərbaycanlının arzusu və şərəf borcudur. Çünki bu dəstək həm də bizim hər birimizin qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfəsi olacaq. Məhz elə bu vacib məqamları nəzərə alaraq Prezident İlham Əliyev 2021-ci il yanvar ayının 4-də "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalayıb. Fondun yaradılması Azərbaycan xalqının Qarabağa möhtəşəm qayıdışı istiqamətində dövlətimiz tərəfindən atılan ən əhəmiyyətli addımlardan biridir. 30 il ərzində işğal altında olan Vətən torpaqlarında erməni qəsbkarlarının törətmədikləri vandalizm aktının qalmadığını hamımız gözəl bilirik. Şəhərlərimiz, qəsəbə və kəndlərimiz viran edilib, təbii sərvətlərimiz talan olunub, tarixi-mədəni irsimiz tamamilə yox edilmək məqsədilə olmazın dağıntılara məruz qoyulub. Düşmən bu torpaqların əsl sahiblərini dünyadan gizlətmək üçün əlindən gələni edib. Lakin bütün bunların bir nəticəsi olmadı. Vətən torpağı düşmən tapdağı altında əbədi qala bilməzdi və qalmadı. Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi, biz öz torpaqlarımızı şəhidlərimizin qanı bahasına azad etdik. Bu gün isə həmin torpaqları alnımızın təri ilə yenidən dirçəltməyə başlayırıq.

Qarşıda bizi irimiqyaslı quruculuq-bərpa işləri gözləyir və bu işlərdə öz payı olduğunu görmək hər kəsin arzusudur. Lakin belə məsələlərdə pərakəndəlik də qətiyyən yolverilməz bir haldır. Məhz elə bu baxımdan da Qarabağ Dirçəliş Fondunun yaradılması müstəsna əhəmiyyət kəsb edən bir hadisədir. Qarabağ Dirçəliş Fondu 2021-ci ildə Azərbaycan xalqının birlik və həmrəylik rəmzlərindən birinə çevriləcək və məhz bu fondun dəstəyilə işğaldan azad edilmiş rayon və bölgələrimiz ən qısa zamanda respublikamızın inkişaf etmiş regionları sırasında öz layiqli yerini tutacaq.

### Prezidentin çağırışına hər kəs səfərbər olmalıdır

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və onun üzv təşkilatları Birinci Qarabağ müharibəsi dövründə olduğu kimi, Vətən müharibəsi dövründə də şanlı ordumuza, əsgər və zabitlərimizə, eyni zamanda arxa cəbhədə fəaliyyət göstərən vətəndaşlarımıza maddi və mənəvi cəhətdən dəstək vermək üçün bir sıra tədbirlər həyata keçirmişdir.

AHİK uzun illər ərzində qaçqın və məcburi köçkünlərin məskunlaşdıqları yerlərdə onların ehtiyacları ilə maraqlanmış, yardımlar göstərmişdir. AHİK və üzv təşkilatları tərəfindən edilən yardımlar 10 milyon manatlarla hesablanır. Bundan başqa, AHİK-in sanatoriya-kurort müəssisələrində qaçqın və məcburi köçkünlər məskunlaşdırılmış, onların kommunal xidmətləri tərəfimizdən ödənilmişdir.

Vətən müharibəsi dövründə həmkarlar ittifaqı təşkilkatlarının rəhbərləri arxa cəbhədə daim əhali arasında olmaqla onlara Vətən müharibəsinin baş vermə səbəblərini, beynəlxalq təşkilatların, o cümlədən BMT-nin, İƏT-in, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin, Avropa İttifaqı, Avropa Şurasının və digərlərinin münaqişə ilə bağlı qəbul etdikləri qərar və qətnamələrin mahiyyətini izah etmişlər.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərində, xarici ölkələrin media qurumlarına verdiyi müsahibələrdə müharibənin öz ərazimizdə aparılma səbəbləri, bu ədalətli müharibədə ordumuzun qarşısında duran vəzifələr, bəzi beynəlxalq təşkilatların tutduqları qeyri-obyektiv mövqelər, postmüharibə dövründə Azərbaycan və erməni vətəndaşlarının dinc yanaşı yaşayış şərtləri və digər məsələlərlə bağlı fikirlər həmkarlar ittifaqı üzvləri ilə yanaşı, digər əhali qruplarına çatdırılmışdır. Bütün bunlarla bərabər, AHİK 27 sentyabr 2020-ci ildə erməni silahlı qüvvələrinin bütün cəbhəboyu törətdiyi təxribat və noyabrın 25-də Fransa senatının qəbul etdiyi üzdəniraq qətnamə barədə bəyanat yayaraq beynəlxalq təşkilatlara, o cümlədən "Amnesty İnternational" təşkilatına, ABŞ Konqresinin Nümayəndələr Palatasına müraciətlər ünvanlayaraq, dünyanın gözü önündə törədilən vəhşilik, barbarlıq aktlarının və Azərbaycana qarşı ikili mövqenin sərgilənməsini beynəlxalq ictimaiyyətə çatdırmışdır.

Müraciətlərdə beynəlxalq təşkilatların haqq səsimizi eşidərək Azərbaycanın dinc sakinlərinə, o cümlədən Gəncə şəhərində mülki əhaliyə qarşı həyata keçirilən vandalizm hərəkətlərinin qətiyyətlə pislənməsi və BMT-nin Təhlükəsizlik Şurasından təcili toplanaraq Gəncənin bombalanması əmrini verən və çoxlu sayda mülki əhalinin ölümünə səbəb olan təcavüzkar Ermənistan rəhbərlərinin sərt şəkildə cəzalandırılması üçün müvafiq addımlar atılması tələb edilmişdir.

AHİK-in müraciətləri beynəlxalq həmkarlar ittifaqları ilə yanaşı, 103 ölkədə fəaliyyət göstərən 499 xarici həmkarlar ittifaqı təşkilatlarına və 59 beynəlxalq qurumlara da göndərilmişdir. Bu müraciətlər və bəyanatlar respublika KİV-ində və AHİK-in saytında da yerləşdirilmişdir.

Vətən müharibəsi dövründə AHİK-lə yanaşı, onun üzv təşkilatları və həmkarlar ittifaqı komitələri daim dövlətimizin və ordumuzun yanında olmuş, milli həmrəylik nümayiş etdirmiş, Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda vuruşan hərbçilərimizə və onların ailələrinə diqqət və qayğı göstərilməsini başlıca istiqamətə çevirmiş, müxtəlif tədbirlər həyata keçirmiş, baş verən hadisələrə münasibət bildirmiş, Ali Baş Komandanımızın bütün addımlarını dəstəkləyərək Azərbaycanın şanlı ordusuna maddi və mənəvi yardımını göstərmişlər.

AHİK və onun üzv təşkilatları tərəfindən Vətən müharibəsi dövründə 3 milyon 424 min 312 manat xərclənmişdir. O cümlədən Vətən müharibəsi dövründə AHİK İcraiyyə Komitəsinin 5 oktyabr tarixli qərarı ilə Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına 350 min manat ianə edilmiş, İcraiyyə Komitəsinin digər qərarı ilə Naxçıvan Muxtar Respublikasında yaşayan, döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuş şəhid ailələrinə kömək göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına 150 min manat köçürülmüşdür. Sahə həmkarlar ittifaqları tərəfindən 1.380.687 manatlıq maddi yardım göstərilmiş, Silahlı Qüvvələrə Yardım Fonduna 1.005.875 manat vəsait köçürülmüş, "Yaşat" Fonduna 537.750 manat ianə edilmişdir.

AHİK-in İcraiyyə Komitəsinin qərarı ilə, aztəminatlı və digər həssas kateqoriyadan olan ailələrə ərzaq sovqatı verilməsi məqsədilə "Regional İnkişaf" İctimai Birliyinin hesabına 500 min manat vəsait köçürülmüşdür. Yekun olaraq bildirim ki, AHİK və onun üzv təşkilarları tərəfindən Pandemiya və Vətən müharibəsi dövründə ümumilikdə 10 milyon manata yaxın vəsait xərclənmişdir.

Yeri gəlmişkən qeyd edək ki, hələ Vətən Savaşı başlalamış AHİK-in İcraiyyə Komitəsi 2016-cı ilin Aprel və 2020-ci ilin iyul döyüşlərində həlak olmuş 23 hərbi qulluqçunun 41 nəfər uşağının üzv təşkilatlar tərəfindən himayəyə götürülməsi və 18 yaşına çatanadək onlara hər ay 150 manat maddi yardım edilməsi haqqında qərar qəbul etmişdir. 18 yaş həddinə çatana qədər həmin uşaqlara göstəriləcək yardımın məbləği isə 885 min 600 manat olacaqdır.

Hamıya yaxşı məlumdur ki, erməni işğalından əvvəl Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tabeliyində olan "Kurort" Səhmdar Cəmiyyətinin "Şuşa" İstirahət Evi, Kəlbəcərdə "İstisu" sanatoriyası, "Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyinin Qubadlı rayonunda 200 yerlik pansionatı və "Farel" balıqçılıq təsərrüfatı, Cəbrayıl rayonunun Sirik kəndində 320 yerlik uşaq istirahət mərkəzi, Ağdam rayonunun Gülablı kəndində "Gülablı" sanatoriyası və "Nur" uşaq istirahət evi, Azərbaycan Turizm və Ekskursiyalar Şurasının Şuşa şəhərində "Şəfa", Ağdamda "Şahbulaq" turist bazaları fəaliyyət göstərirdi. Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin də idman stadionları, şahmat klubları, bəzi üzv təşkilatların isə obyektləri işğaldan azad edilmiş ərazilərdə mövcud olmuşdur. Çox təəssüf ki, bu sağlamlıq ocaqları və idman qurğuları erməni vandalizminin qurbanı olmuş və yerlə-yeksan edilmişdir. Hesab edirəm ki, bütün bunlar müvafiq orqanlar tərəfindən inventarlaşdırılıb, vurulmuş ziyan müəyyən edildikdən sonra onların bərpası gündəmdə olmalı və lazımi addımlar atılmalıdır.

Təbii ki, azad olunmuş Qarabağda və ona bitişik rayonlarımızda aparılacaq abadlıq, quruculuq və yenidənqurma işləri ilə bağlı xeyli iş yerləri açılacaqdır. Oraya ayrı-ayrı müəssisə və təşkilatlar tərəfindən investisiyalar qoyulacaqdır. İnvestisiya qoyan müəssisələrin hamısında həmkarlar ittifaqı təşkilatlarının yaradılması üçün də inzibati binaların tikintisi həyata keçiriləcəkdir.

*Əminik ki, böyük inam və qələbə əzmi ilə qədəm qoyduğumuz 2021-ci il də tariximizə əlamətdar məqamlarla həkk olunacaq. Zəfər ovqatı iqtisadi-sosial sahədə irəliləyişlərlə, böyük quruculuq və inkişaf tempi ilə müşayiət ediləcək. Möhtərəm Prezident İlham Əliyevin qüdrətli liderliyi ilə Azərbaycan dövləti və xalqı qarşısına qoyduğu bütün hədəflərə çatacaq və davamlı nailiyyətlərə nail olacaq.*

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

◆ Qəzet mövzusunda

# İTMİŞ ÜMİDLƏR QAYIDACAQMI?!

## Yarımçıq qalmış missiya

*Əvvəli 1-ci səh.*

Həm də qanun əsasında fəaliyyət göstərirdi. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 31 iyun 2008-ci ildə təsdiq etdiyi “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası” bütün bu məqamları, habelə xeyirxah və xoş niyyətləri özündə dolğun əks etdirən bir sənəddir.

Yenə də öz qüvvəsindədir!

Konsepsiyanın mükəmməl və müasir tələbləri əks etdirən özünəməxsus fəlsəfəsi də vardır.

*Əvvəla,* mətbuat və söz azadlığının möhkəmlənməsinə və inkişafına kömək edir.

*İkinci,* dövlətin müstəqil mətbuata, onun iqtisadi cəhətdən güclənməsinə yardım göstərir.

*Üçüncüsü,* jurnalist peşəkarlığının yüksəlməsinə şərait yaradır.

*Dördüncüsü,* jurnalistlərin yaradıcılığı ilə bahəm sosial vəziyyətinin yaxşılaşmasına da dəstək verir.

*Ən nəhayət,* iki mühüm məqam: əvvəla, bu yolla dövlət mətbuatın problemlərinin həllində yaxından iştirak edir, ikincisi, bu halda KİV-in işinə qarışmır, onlara öz iradəsini qəbul etdirməyə çalışmır!

Belə ki, dövlət öz siyasətini, marağında olduğu və daim mətbuatda işıqlanmasını istədiyi mövzuları konsepsiyada on doqquz istiqamətdə ifadə etmişdir. Həmin istiqamətlərdən istədiyini seçən qəzet uyğun layihə hazırlayır, müsabiqəyə təqdim edir, qalib gəldiyi halda maliyyələşdirilərək müəyyən dövr ərzində mövzunu səhifələrində işıqlandırır.

Bir daha vurğulayırıq: qəzet öz layihəsi (dövlətin ona verdiyi layihə yox) əsasında fəaliyyət göstərərək müəyyən vəsait qazanır!

Həm də bu qayda müstəqil mətbuata şamildir. Rəsmi dövlət qəzeti və iqtidar qəzetləri belə maliyyələşmədən kənardadırlar.

Digər təəssüf doğuran məqam isə, obrazlı desək, vannadakı çirkli su ilə bərabər çimizdirilmiş uşağın tullanmasıdır.

* Uzun illər boyu çoxsaylı qəzetlər dövlət vəsaiti hesabına maliyyələşdirilib;

* Yaradıcılıq müsabiqələrində jurnalistlər qalib gələrək müəyyən məbləğdə pul mükafatları alıblar;

* Çoxsaylı jurnalistlərə dövlət hesabına tikilib təmir edilmiş mənzillər verilib və bunun hesabına kirayədən və darısqallıqda yaşamaqdan yaxası qurtaranlar, övladlarını evləndirmək imkanı qazananlar, ən əsası, şəxsi əmlaka sahib olanlar az olmayıb.

Dünyanın heç yerində belə hal yoxdur!

Bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin səxavətinin, biz jurnalistlərə qayğısının nəticəsidir!

Biz jurnalistlər ona müraciət edəndə xahişimizi cavabsız qoymadı, dəfələrlə mənzil tikintisi üçün vəsait ayırdı.

Hətta söz verdi ki, həmin ərazidə jurnalist şəhərciyi yaradılacaqdır və vədinə həmişəki kimi əməl etməkdədir!

O başqa məsələdir ki, konsepsiyanı gerçəkləşdirəndə, keçirilən müsabiqələrdə, mənzil bölgüsündə üzgörənliyə, sui-istifadəyə, ədalətsizliklərə yol verilib!

Baiskarlar qanun qarşısında cavab verəcəklər!

Digər vacib məsələ isə bu xeyirxah işlərin davam etdirilməsi, KİV-in maliyyə müstəqilliyi qazanaraq ayaqda durmalarının təmin edilməsi, mətbuatın hazırda heç də az olmayan problemlərinin dövlətin dəstəyi əsasında həllidir!

Başqa sözlə, ölmüş ümidlərin dirçəlməsidir!

### BARƏSİNDƏ “ÖLÜM HÖKMÜ” VERİLƏN QƏZET

Həsən bəy Zərdabi 146 il bundan qabaq xalqına xidmət etmək üçün qəzet açdı, savadsızlığa, cəhalətə qarşı mübarizə apardı, millətini maarifləndirdi.

Eyni zamanda Azərbaycan Milli Mətbuatının ənənə və prinsiplərini də yaratdı, inkişaf etdirdi, bizə miras qoyub getdi.

O dövrdə milləti savadlandırmaq, gözünü açmaq, məktəbi, elmi təbliğ etmək, qızları oxutmaq, dilin təmizliyini qorumaq və s. milli maraqlara daxil olan məsələlər sayılırdı.

İndi isə qəzetlər yoxa çıxmağa başlayıb!

Daha doğrusu, qəzet “keçmiş” sayılaraq barəsində “ölüm hökmü” çıxarılıb!

Deməli, onunla birgə milli mətbuatın ənənə və prinsipləri də yox olacaq!

Bu gün təkcə ideoloji mübarizə yox, əslində həm də müharibə gedir. Və əgər Prezidentimiz informasiya müharibəsində də qalib gəlməsəydi, Vətən müharibəsindəki qələbəmiz bu qədər möhtəşəm və etibarlı olmazdı!

Yaxşı, qəzetləri bağlayaq, qoy yox olub getsinlər! Bəs sonra bu boşluğun yerini kim və nə dolduracaq?

Sosial şəbəkələrdəki anti-Azərbaycan çıxışlar, şər, böhtan, kimlərinsə maraqlarına xidmət edən yazılar?

Unutmayaq, haradasa yaranan boşluq heç zaman boş qalmır!

Ondan istifadə etməyi bacaranlar tapılır!

❖ ❖ ❖

Daha bir vacib məqam: qəzet günün tarixini yazır, sonra bu günlər aylara və illərə çevrilir...

Baş verənlər yaddaşlardan silinsə də, qəzet səhifələrində yaşayır!

Müstəqillik dövrü möhtəşəm hadisələrlə zəngindir. Əslində Ermənistan-Azərbaycan müharibəsində zəfərimiz əsrlərlə gözlədiyimiz qələbədir! İndi isə Qarabağın dirçəldilməsi prosesi gedir.

Tariximizin qızıl səhifələri, bu dövrdə qəbul edilən qərarlar, görülən işlər olduğu kimi gələcək nəsillərə də çatdırılmalıdır!

İndiyədək şahidi olduğumuz məqamlar göstərir ki, elektron medianın arxivi etibarlı və əhatəli deyil!

Sosial şəbəkələr isə arxivsizdirlər!

Qəzetləri yoxa çıxarsaq, arxivimiz, tariximiz nə ilə zənginləşəcək?

Bu məqamı da nəzərdən qaçırmamalıyıq.

### VƏSAİT XƏRCLƏNSƏ DƏ, MƏQSƏDƏ NAİL OLUNMADI

Bəli, KİV DDF uzun illər boyu fəaliyyət göstərdi, dövlətin ətək-ətək pulu xərcləndi!

Qəzetlərin maliyyə durumu yaxşılaşdımı?

Jurnalistlərin əməkhaqları yüksəldimi?

Jurnalist peşəkarlığı artdımı?

Üçüncü təəssüfümüz isə budur ki, bunların heç biri baş vermədi!

Yenə yanlışlıqlar:

Konsepsiyanın fəlsəfəsinə görə öz oxucu auditoriyası olan, qəzet bazarında yer tuta bilən qəzetlərə sistemli dövlət yardımı göstərilməli idi ki, onlar sıradan çıxmasınlar, gələcəkdə ayağa qalxaraq özlərini maliyyələşdirə bilsinlər.

Məntiqlə belə qəzetlərin sayı on doqquzdan çox olmamalı idi.

Əvvəla, on milyon əhalisi olan Azərbaycana çoxlu sayda qəzet gərək deyil! Ən əsası isə, dövlət sifarişi on doqquz istiqamətdə əhatə olunmuşdur. KİV DDF-də isə onların sayını artıraraq otuzu keçmişdilər! Hətta qəzetləri “dərəcələr”ə bölərək ödənilən qrantların sayını artırmış, bu hesaba yeni qəzetləri “dövlət himayəsinə” almışdılar.

Ən maraqlısı isə budur ki, “ikinci dərəcəli” qəzetlər cərgəsinə üslubca başqalarından fərqlənən, səhifələrində daha çox orijinal materiallara yer verən, müstəqillik dövrünün ilk illərindən nəşrə başlayan və bəlli oxucu auditoriyası olan “Ədalət”, “Şərq” və “525-ci qəzet” ləri də salmış, onları “aşağı qrup”a keçirmişdilər.

Başqa bir gerçəklik:

Qəzetlərin ölümə məhkum edilməsi subyektiv düşüncə və mülahizələrdən irəli gəlir!

Hazırda dünyanın heç bir yerində, heç bir dövlətin tanınmış, uzun illər boyu çıxan qəzetləri bağlanmayıb!

Çünki hər qəzetin, televiziya və saytın öz oxucu auditoriyası mövcuddur.

Diqqətçəkən bir məqam: 44 günlük müharibə dövründə Ali Baş Komandan İlham Əliyevdən müsahibə almağa gələn KİV arasında bir sıra ölkələrin tanınmış qəzetləri də vardı!

Bəli, televiziya müsahibələri müsahibə mavi ekranda səsləndirilən müddətdə yaşayır.

Elektron resurslarındakı müsahiblərin ömrü bir gündür.

Qəzetdə gedən müsahibələri isə istənilən vaxt oxumaq, vacib məqamların altından xətt çəkmək, deyilən fikirlərin üzərində bir daha düşünmək mümkündür!

Onlar həm də arxivlərdə qalaraq gələcək nəsillərə də çatır!

Qəzetlərin öldürülməsi jurnalistikanın janrlarının da ölüb getməsinə səbəb olacaqdır!

Əsas səbəb isə respublika üzrə ümumidir: qəzetlərin maliyyə, deməli, həm də peşəkarlığın yüksəldilməsi ilə bağlı problemlərinin heç biri həll edilməyib!

Əksinə, bu sahədə dövlət siyasətində əyintilərə yol verilməsi vəziyyəti daha da ağırlaşdırıb, demək olar ki, dalana salıb!

### QAZANMAQ İMKANI YOXDURSA...

Bazar iqtisadiyyatı şəraitində qəzetlərin yaşamasının birinci şərti reklam bazarının mövcudluğudur!

Təəssüf doğuran məqam budur ki, indiyədək ölkədə qəzetlər üçün reklam bazarı formalaşdırılmamışdır. Bir neçə dəfə bununla bağlı məsələ qaldırılsa da, Mətbuat Şurası dəfələrlə təşəbbüs göstərsə də, heç bir real nəticəyə nail olunmamışdır!

Müqayisə üçün deyək ki, televiziyaların reklam bazarı aşıb-daşır.

Gün ərzində hər bir özəl kanal özünün hazırladığı verilişlərdən çox reklam rolikləri fırladır. Gizli reklamlar isə artıq mavi ekranın atributuna çevrilmişdir.

Qəzetlərə isə belə imkan yaradılmayıb!

Həm də nəinki reklam bazarı, üstəgəl...

❖ ❖ ❖

Başqa bir təəssüf doğuran hal odur ki, hələ sovet dövründən yaradılmış qəzet yayımı və satışı sistemi tamamilə dağıdılmış, daha doğrusu, məhv edilmişdir!

Qəzet oxumaq bir vərdişdir.

Sovet dovründə və müstəqilliyin ilk illərində qəzet insanların həyatına daxil olmuşdu.

Hər gün səhərimiz qəzet oxumaqla başlayır, axşamlar isə mavi ekrandan gündəlik yenilikləri öyrənirdik.

Tənqid etdiyimiz sosializm dövründə nəinki rayon mərkəzlərinə, hətta ən ucqar kəndlərə belə gündəlik qəzet çatdırılırdı!

Bircə gün qəzetin gecikdirilməsi “fövqəladə hal” sayılırdı.

Dövlət bunula həm ideologiyasını təbliğ edər, həm də informasiyanı öz maraqları baxımından yönləndirərdi.




İnternet saytları əsasən informasiya (demək olar ki, bütün saytlar eyni gündə eyni informasiya verir, fərqlilik cüzi hiss olunur), bir də “telefon müsahibələri” verməklə məşğuldur.

Bu tip materiallarda jurnalist sənətkarlığı, redaktə məsələləri hiss olunmur, Azərbaycan dilinin zənginliyi, şirinliyi duyulmur.

Geniş analitik yazılara, araşdırma materiallarına, oçerk, zarisovka, reportaj, hesabat, korrespondensiya, epistolyar janrlara təsadüfi hallarda, bəlkə də heç rast gəlməzsən.

Saytlar məlumatlandırırlar!

Qəzetlər isə həm də maarifləndirirlər!

Jurnalist peşəkarlığı qəzetlərdə formalaşır, dilin təmizliyi qəzetlərdə qorunur!

Ən əsası, dövlət siyasətinin özəyi qəzetlərdə saxlanılır. Burada hər şey aydın və konkret qoyulur, nala-mıxa vurmaq mümkün deyildir!

İndi gəlin qəzet itkisi ilə birgə baş verəcək digər itkilərimizi də hesablayaq!

Bəlkə kimlərsə bunlardan hali deyillər!

Amma zamanı keçdikdən sonra gec olur!

Biz də unutmayaq, itirilənlərin hamısını təzədən dala qaytarmaq, yaxud bərpa etmək mümkün olmur!

### QEYRİ-ADİ PEŞƏNİN AŞAĞI ƏMƏKHAQQI

Bu gün özünə jurnalist adı qoyanlar həddindən çoxdur!

Səbəbi aydındır: “baş redaktor” kimisə işə qəbul edib ona qəzetin, saytın, yaxud informasiya agentliyinin və s. vəsiqəsini verirsə, dərhal həmin adam dönüb olur “jurnalist”.

İxtisas təhsili olmayanlar (belələri isə həddindən çoxdur) jurnalistika üzrə ali təhsil almağın vacib olmadığını söyləyirlər.

Çünki onlar 4-6 il ərzində universitetlərdə tələbələrə nə öyrədildiyindən, hansı bilgilərin verildiyindən xəbərsizdirlər!

Həm də jurnalist olmaq üçün təkcə bilikli olmaq azdır, xüsusi istedadın da mövcudluğu vacibdir!

Jurnalist əməyi də asan, sadə əmək deyildir!

Bu əməyə ən doğru, ən dolğun, ən ədalətli qiyməti Ulu Öndər Heydər Əliyev verib: *“Jurnalist əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir”.*

Bu, “qeyri-adi” əməyi, “zəhmətli”, “çox səylər göstərilməsini”, “cəsurluq, hünər, fədakarlıq” tələb edən əməyi ağırlıq dərəcəsinə uyğun şəkildə dəyərləndirmək də gərəkdir!

Sadə şəkildə ifadə etsək, jurnalistlərin əməkhaqları da peşəyə uyğun gəlməklə, yüksək olmalıdır!

Dünyanın bütün ölkələrində vəkil, həkim və jurnalist əməyi ən yüksək qiymətləndirilən əmək növünə şamil edilir.

Bəs bizdə necədir?

Başqalarını deyə bilmərəm, uzun illərdir ki, “Azərbaycan” qəzetində müxbir ölkə üzrə orta əməkhaqqının “aşağı hissəsi” həcmində əməkhaqqı alır.

Səbəb çox sadədir: redaksiya özünümaliyyələşdirmə prinsipi əsasında fəaliyyət göstərir.

Bu gün isə əməkhaqqının artırılma yox, aşağı salınma ehtimalı daha çoxdur!

İndi nəinki kəndlərə (bunu ağlına gətirən də yoxdur), heç rayon mərkəzlərinə belə gündəlik qəzet vaxtlı-vaxtında çatdırılmır!

Heç kəs də buna görə məsuliyyət daşımır!

Qəzetini vaxtında almayan oxucu ona niyə abunə yazılmalıdır?!

Yaxud qəzet satışını götürək.

Hesabla çoxmilyonlu paytaxt şəhəri bunun üçün münasib yerdir. Amma...

Əvvəlcə köhnə köşklərin şəhərin görünüşünü pozduğunu söylədilər...

Sonra təzə köşklər düzəldərək sahibini dəyişdilər...

Axırda şəxsi maraqlar bu sahənin evini yıxdı!

Mətbuat yayımı ilə məşğul olmaq üçün qəzet bazarına girənlər əlavə xərc çəkmədən, nəqliyyat-paylama mexanizmi yaratmağa vəsait yatırmadan çox qazanc götürmək yolunu tutdular.

Köşklərdə qəzet tapmayan oxucular isə əllərini ondan üzdülər...

Beləliklə, qəzet oxumaq vərdişi öz yerini əl telefonunda “qurdalanma” vərdişinə verdi.

Bu, hamı üçün asan, əlçatan və daha ucuz sayılır!

Dövlətin maraqları baxımından yanaşdıqda isə yox!

Yalan, şər, böhtan, qeyri-dəqiq “fakt”lar mobil telefonla “qədəm qoyduğumuz” yerlərdə, sosial şəbəkədə istənilən qədərdir.

Dövlət isə bəzən “5-ci kolon”un yaydığını təkzib etmək, həqiqəti vətəndaşlarına çatdırmaq üçün günlərlə çalışmalı olur.

Bir vaxtlar Prezident İlham Əliyev paytaxtdakı qəzet köşklərini “mini bazar” adlandırmışdı.

Onlar zahirən yenilənsələr də, mahiyyətcə əvvəlki kimi qalıblar.

“Qəzet köşkü”ndə qəzetdən başqa hər şey satılır.

Hətta onların arasında ziyanlıları da vardır!

Əgər redaksiyanın pul qazanmaq imkanı hər yerdən kəsilibsə, qəzeti necə yaşatmaq, əməkdaşlara hansı mənbədən əməkhaqqı vermək olar?!

Bu gün ictimai rəyin yaranmasında qəzetlərin iştirak etmədiyini söyləyənlər də var! Şübhəsiz, ictimai rəyin necə formalaşması, hansı maraqlara xidmət etməsi vacib məsələdir. Təəssüf ki, burada da problemsiz ötüşə bilmirik. Düşmənlərimizin mövcudluğu, informasiya təhlükəsizliyinin təmin olunmasının zəruriliyi məqamında bu məsələni başlı-başına qoymaq olmaz! Halbuki indiki gərgin şəraitdə onun formalaşmasında subyektiv məqamlar, xüsusən sosial şəbəkədəki “kütləvi təpkilər” heç də az rol oynamır.

Qınaq mexanizmi isə demək olar ki, işləmir.

Altıncı təəssüf doğuran məsələ odur ki, hər kəs hər şeydə özünü haqlı sayır.

Kim nə deyir və yazırsa, onun “obyektiv həqiqət”, “ədalətli qərar və mövqe” olduğunu zənn edir.

Çox nadir hallarda insanlar doğru olmadıqlarını, haqsızlıq etdiklərini boyunlarına alırlar.

Düz sözə, haqlı irada reaksiya yox dərəcəsindədir!

Tənqid obyekti ən yaxşı halda deyilənləri qulaqardına vurur, susmaqla yola verir!

Qara məni basınca prinsipi ilə şivən qoparanlar, hücuma keçənlər də az olmur!

Dövlət maraqları və prinsipləri isə belə gərgin anlarda daha diqqətlə və peşəkarlıqla qorunmalıdır!

İlbəil qəzetlərin abunəsi azalır, satışı başlı-başına buraxılır, oxucular print-mediadan getdikcə uzaqlaşırlar...

Bura qədər deyilənləri yekunlaşdırsaq nə görürük:

* əgər reklam bazarı yoxdursa;

* qəzet köşkləri “çax-çux”la məşğuldursa;

* jurnalistlərin əməkhaqqı artmırsa;

* redaksiyaların maddi-texniki bazarı yaxşılaşmırsa;

* yaradıcı heyətin həvəsləndirilməsi mümkün deyilsə;

Deməli, nə peşəkarlıq yüksələcək, nə də vəziyyət düzələcək!

Geriləmə davam edəcək, qəzetlərə “ölüm hökmü” verənlər məqsədlərinə nail olacaqlar!

Bu gün milli jurnalistikanın vətənpərvər, savadlı, istedadlı, peşəkar, xalqı və dövləti qəlbən sevən insanlara daha çox ehtiyacı var!

Lakin normal əməkhaqqı alaraq ailəsini yaxşı yaşada bilməyən savadlı və bilikli insanlar bura üz tutarlarmı?!

Vaxt var idi ki, hətta qəzet nəşri sahəsində çalışan texniki işçilər - linotipçilər (yığıcılar) və mürəttiblər (səhifələyicilər) öz övladlarını bu sahəyə gətirir, orta məktəbi qurtaran kimi şagird sifətində işə qəbul etdirərək ardıcıllarına çevirirdilər.

Çünki bilirdilər ki, dərəcələri artdıqca əməkhaqları da artacaq, iş yerində növbəyə duraraq mənzil alacaq, ailələrini normal dolandıracaqlar.

İndi isə heç bir jurnalist öz övladının jurnalist olmasına razı olmur!

### DÖVLƏT BAŞÇISI FƏRMAN İMZALAYIB

Mətbuatla bağlı dövlət siyasətində yol verilmiş əyintiləri aradan qaldırmaq, söz azadlığının qorunub saxlanması sahəsində problemlərin tez bir zamanda və uğurlu həllinə nail olmaq üçün dövlət başçısı İlham Əliyev “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” fərman imzalamışdır. Bu mühüm tarixi sənəddə belə bir addımın atılmasının vacibliyi də qeyd olunmuşdur: *“Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır”.*

Bu mötəbər sənəddə səhvlərin, yanlışlıqların, nöqsanların qısa müddətdə aradan qaldırılaraq problemlərin həlli yolunda başlıca istiqamətlər də müəyyənləşdirilmişdir. Belə ki, nəzərdə tutulan islahatların həyata keçirilməsi yeni yaradılmış Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə həvalə olunmuşdur. Agentliyin təsdiq olunmuş nizamnaməsində çap mediasının ən ağrılı problemlərinin çözümü istiqamətləri də konkret şəkildə göstərilmişdir.

Bir neçə maddəni diqqətə çəkirik:

*3.1.3. media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tətbirlər görmək;*

*3.1.5. jurnalistlərin peşəkarlıqlarının və məsuliyyətinin artırılmasına, o cümlədən sosial müdafiəsinə yönəldilmiş tədbirlər həyata keçirmək;*

*3.1.6. medianın inkişafına maliyyə təminatı yaratmaq məqsədilə tədbirlər görmək;*

*3.1.17. çap mediası məhsullarının abunə və satışının təşkilinə dəstək göstərilməsi istiqamətində tədbirlər görmək.*

Tamamilə doğru və dəqiqdir!

Lakin nizamnamədəki vəzifələrin gerçəkləşdirilməsinə MEDİA-nın gücü və imkanı çatacaqmı?!

Qəzetlərin tirajı elə bir səviyyəyə enib ki, tezliklə bəziləri redaksiyanı saxlamaq və işçilərin elə də yüksək olmayan əməkhaqlarını ödəmək qabiliyyətini itirəcəklər!

Çıxılmaz vəziyyəti önləmək üçün lap qısa müddətdə print-medianın ən böyük problemləri həllini tapmalıdır!

Başqa sözlə:

* çap mediası üçün reklam bazarı yaradılmalı;

* qəzetin ölkə ərazisində yayımı qaydaya salınmalı;

* sərbəst satış təmin edilməli, qəzet köşklərinin öz təyinatları üzrə işləməsinə nail olunmalı;

* dövlət büdcəsi hesabına nazirlik və komitələrdə nəşr olunan, yalnız müəssisə maraqlarına xidmət edən qəzet və jurnalların mövcudluğuna əncam çəkməli;

* “mətbuat xidməti” adı altında bütün idarə, təşkilat, qurum və s. yaradılan, əslində jurnalistlər üçün keçilməz maneəyə çevrilən “hasar”ın mövcudluğu zərurətinə yenidən baxılmalı;

* qəzet kağızının və çap texnologiyasında keyfiyyətin yüksəldilməsi təmin edilməli;

* jurnalistlərin əməkhaqqının artırılması üçün real şərait formalaşdırılmalıdır!

Yeni qurum qısa müddətdə bu problemlərin icra mexanizmini yarada və işə sala biləcəkmi?!

Allahdan arzu edək ki, bacarsın!

Biz də daim ona dəstəkçi olmağa hazırıq!

❖ ❖ ❖

Bəlkə təzədən velosiped kəşf etmək fikrinə düşməyək! Qonşu ölkələrin, məsələn, Türkiyə və Rusiyanın sınaqdan çıxmış təcrübəsindən - qəzetlərin səhmdar cəmiyyətə çevrilərək özəl holdinqlərə birləşdirilməsi metodundan istifadə edək?

### BALIQ TUTA BİLƏCƏYİKMİ?!

Sözümüzün əvvəlinə qayıdırıq: KİV DDF getdi, MEDİA gəldi!

Ümidlər çoxdur!

Hamı hər şeyin dəyişəcəyini, səhvlərin düzəldiləcəyini, ölmüş ümidlərin dirçəldiləcəyini gözləyir!

Dövlət arxamızdadır, bəs qədər vəsait ayırır, mətbu sözə yüksək dəyər verir!

Yeni MEDİA-nın da qarşısına mühüm vəzifələr qoyulub. Üzərinə düşən məsuliyyət isə daha çoxdur!

Hələlik gözləyirik!

COVID-19 da bir yandan mane olmaqdadır...

Ümid bir çörəkdir ümidsizlərə...

Yaponlar ac adamlara yemək üçün balıq vermirlər!

Onlara balıq tutmağı öyrədirlər...

KİV DDF balıq payladı!

MEDİA balıq tutmağa şərait yarada biləcəkmi?

Bütün hallarda uğurlar diləyirik!

**Bəxtiyar SADIQOV**

# Azərbaycan xalqı şəhidlərin xatirəsini ehtiram və qürurla yad etdi








*Foto İlham BABAYEVİNDİR*

20 Yanvar faciəsindən 31 il ötür. 1990-cı il Yanvarın 20-də Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən vətən övladları xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.

Bu faciədən uzun müddət keçsə də, baş verənlər unudulmur. Vətən uğrunda canından keçən oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımızın müqəddəs ziyarətgahına çevrilib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə şəhid qanları ilə Azərbaycanın yeni tarixi yazıldı. 20 Yanvar tariximizin həm kədərli, həm də qürurlu səhifəsidir.

AZƏRTAC xəbər verir ki, yanvarın 20-də səhər saatlarından başlayaraq paytaxt sakinləri, ictimaiyyətin nümayəndələri Şəhidlər xiyabanına gəlib, xalqımızın qəhrəman övladlarının xatirəsini ehtiramla yad ediblər. Onların arasında Vətən müharibəsinin qaziləri, hərbçilər də olub. Ziyarətçilərin bəziləri bu müqəddəs məkana övladları ilə birgə gəliblər.

Şəhidlər xiyabanını hər yaşda olan insanlar ziyarət ediblər. Ötüb keçən illər xalqın şəhidlərinə olan ehtiramını daha da artırır. Çünki qəhrəman şəhidlərimizin fədakarlığı nəticəsində xalqımız azadlıq arzusuna qovuşub. Otuz il işğal altında qalan Qarabağımız şəhidlərimizin canı-qanı bahasına azad edilib. Bu gün Şuşada, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə, Laçında Azərbaycanın Dövlət bayrağı qürurla dalğalanır. Bu, 31 il əvvəl başlamış mübarizə yolunun Zəfər zirvəsidir. Xalqımız doğma Qarabağa rəşadətli Ordumuzun, Müzəffər Ali Baş Komandanımızın, Azərbaycan əsgərinin, qəhrəman şəhidlərimizin sayəsində qovuşub.

Hər il yanvarın 20-də olduğu kimi, faciənin 31-ci ildönümündə də minlərlə insanın paytaxtın ən yüksək nöqtəsində salınan Şəhidlər xiyabanını ziyarət etdi, burada yaşanan mənzərə şəhidlərin əziz xatirəsinə hörmət və ehtiramın, Qarabağ Zəfərindən doğan qürurun daha bir parlaq nümayişi oldu.

# Co Bayden Ağ evdə

## ABŞ-ın 46-cı Prezidenti səlahiyyətlərinin icrasına başladı

Gözlənildiyi kimi, ABŞ-ın seçilmiş Prezidenti Co Bayden yanvarın 20-də and içərək səlahiyyətlərinin icrasına başlamışdır. Dövlət başçısı ilə bərabər, Kaliforniya ştatından keçmiş senator, seçilmiş vitse-prezident Kamala Harris də and içmişdir. Harris vitse-prezident vəzifəsini tutan ilk qadın olaraq ABŞ tarixinə düşmüşdür.



Andiçmə mərasimi ənənəvi olaraq Konqres binasının - Kapitolinin qarşısında keçirilmişdir. Hakimiyyət orqanları cari ayın 6-da Kapitolidə baş vermiş iğtişaşları nəzərə alaraq mərasimin təhlükəsizliyini təmin etmək üçün ən yüksək səviyyədə tədbirlər görmüşdü. Milli Qvardiyanın 25 min hərbi qulluqçusu və 3 min polis əməkdaşı Kapitolinin ətrafında yerləşdirilmişdi. Ərazi hasara alınıb tikanlı məftillərlə çəpərlənmişdi. Həmçinin Vaşinqtonun mərkəzindəki Milli Mall, yollar və metro stansiyaları bağlanmışdı.

Eks-prezident Donald Tramp xələfinin andiçmə mərasiminə qatılmamışdı. O, seçkilərdə məğlub olduğunu etiraf etməkdən boyun qaçırmış, qələbəsinin "oğurlandığını" iddia etmiş, amma yanvarın 6-da tərəfdarları Kapitoliyə basqın etdikdən sonra hakimiyyətin dinc yolla təhvil verilməsini təmin edəcəyini bildirmişdi. Onu da qeyd edək ki, Trampdan əvvəl səlahiyyət müddəti bitən üç dövlət başçısı andiçmə mərasimində iştirak etməmişdi. Belə hadisə sonuncu dəfə 1869-cu ildə baş vermişdi.

Ağ ev ötən çərşənbə axşamı Trampın vida müraciətini yayımlamışdır. O, müraciətində amerikalıları yeni hökumət üçün dua etməyə çağırmış, amma öz varisinin və ölkənin 46-cı Prezidentinin adını çəkməmişdir. Tramp qeyd etmişdir ki, "bu həftə yeni administrasiyanın gəlişini gözləyir, təhlükəsiz və çiçəklənən Amerikanı qoruyub saxlamaqda onun uğuru üçün dua edirik". 45-ci Prezident müraciətində amerikalılara ABŞ-ın böyük ölkə olduğunu xatırlatmış, başçılıq etdiyi administrasiyanın son dörd il ərzində qazandığı uğurları vurğulamışdır. Tramp Prezident kimi qazandığı uğurlar kimi qısa zaman kəsiyində koronavirusa qarşı peyvənd yaradıldığını, pandemiya şəraitində əhalinin və biznesin iqtisadi baxımdan dəstəkləndiyini, vergilərin azaldıldığını, işsizlik səviyyəsinin aşağı düşdüyünü göstərmişdir. O, xarici siyasət sahəsində uğurlarından bəhs edərkən Meksika və Latın Amerikasının bir sıra digər ölkələri ilə ticarət sazişlərinin imzalanmasını, "maraqlarımıza xidmət etməyən birtərəfli qlobal müqavilələrdən" çəkilməyi, NATO-nun üzvü olan ölkələrin müdafiə xərclərinin artırılmasını, ABŞ Kosmik Qüvvələrinin yaradılmasını və orduda keçirilmiş digər islahatları qeyd etmişdir. Tramp son onilliklər ərzində "yeni müharibələrə başlamayan" ilk ABŞ Prezidenti olduğunu da nəzərə çarpdırmışdır.

Yeni Prezidentin and içməsi mərasimində çoxsaylı fəxri qonaqlar, o cümlədən Tramp administrasiyasının keçmiş vitse-prezidenti Maykl Pens, üç sabiq Prezident - Barak Obama, Bill Klinton və Corc Buş (oğul) iştirak etmişlər. 96 yaşlı eks-prezident Cimmi Karter səhhəti ilə əlaqədar tədbirə gələ bilməmişdir. Ölkə parlamentinin üzvləri, yeni hökumətin nazirləri və digər tanınmış şəxslər də tədbirdə idilər. Mərasimdə ABŞ-ın Dövlət Himnini məşhur müğənni Ledi Qaqa ifa etmişdir.

Bununla yanaşı, andiçmə mərasimi dar formatda və karonavirus pandemiyası ilə əlaqədar sosial məsafə normalarına uyğun olaraq keçirilmişdir. Belə ki, tədbirdə tamaşaçıların iştirakına icazə verilməmiş, yeni dövlət başçısının səlahiyyətlərini icra etməyə başlaması münasibətilə təntənəli paraddan imtina etmək lazım gəlmişdir.

Bayden andiçmə mərasiminin gedişində çıxış edərək bütün amerikalıların Prezidenti olacağına, parçalanmış Amerika cəmiyyətini barışdıracağına və siyasi ixtilafları aradan qaldıracağına söz vermişdir. Ağ evin yeni sahibi seçkilərdə qələbə qazanmasını demokratiyanın təntənəsi kimi qiymətləndirərək irqçilik və daxili terrorizmlə mübarizəni gücləndirəcəyini vəd etmişdir. Onun dediyinə görə, ölkə çox şey etməli, çox şeyi düzəltməli və çox şeyi bərpa etməlidir.

Prezident Bayden ABŞ-ın müttəfiqləri ilə münasibətləri düzəldəcəyinə də söz vermişdir. O əlavə etmişdir ki, rəhbərlik edəcəyi ABŞ tərəfdaşlarla birlikdə qlobal problemlərin həllinə girişəcək: "Biz dünənki günün çağırışlarına yox, bu gün qarşılaşdığımız və sabah qarşılaşa biləcəyimiz çağırışlara cavab vermək üçün bütün dünya ilə fəal əməkdaşlıq edəcəyik". Yeni Prezident bildirmişdir ki, ABŞ beynəlxalq aləmdə yalnız gücün nümunəsi kimi yox, həm də nümunənin gücü kimi çıxış edəcək, sülh, tərəqqi və təhlükəsizlik işində güclü və etibarlı tərəfdaş olacaq.

Müşahidəçilər demokratlar Bayden və Harrisi Ağ evdə nadir tandem kimi qeyd edirlər. Belə ki, bu iki siyasətçi əvvəllər bir-birinə rəqib idi və bir-birinə əks mövqe sərgiləyirdi. Hər ikisi Demokratlar Partiyasından ABŞ prezidentliyinə namizəd olmaq istəyirdi. 2019-cu il iyulun axırlarında ilk televiziya debatında Harris və Bayden bir-birinə hücum edirdilər. Harris keçmiş vitse-prezidenti 1970-ci illərdə yürütdüyü siyasətə görə pisləyirdi. O vaxt Bayden senator idi. Harrisin dediyinə görə, Bayden qaradərili və ağdərili amerikalı məktəblilərin birlikdə təhsil almasını əngəlləməyə çalışan ABŞ senatorlarını dəstəkləyirdi. Belə məktəbli qızlardan biri də Harris idi. Bayden isə bu tənqidlərdən çətinliklə müdafiə olunurdu. İki siyasətçi arasında belə ziddiyətlər zaman-zaman özünü büruzə verirdi.

Bütün bunlara baxmayaraq, Bayden və Harrisin ortaq cəhətləri ilk baxışdan çox görünməsə də, onların siyasi proqramları bir-birini mükəmməl tamamlayır. Baydenin prezidentliyi dövründə onların ən çox diqqət yetirəcəkləri sahələr - iqtisadiyyat, ətraf mühitin mühafizəsi, təhsil, sosial ədalət çoxsaylı amerikalılar tərəfindən rəğbətlə qarşılanır.

Kaliforniyalı senatorun özü prezidentliyə namizəd olmaq istədiyi vaxtda da Demokratlar Partiyasının bir çox üzvləri Bayden-Harris tandemini bəyənirdilər. Hamı qaradərili qadını prezidentliyə namizəd kimi təsəvvür edə bilmirdisə də, çoxları onu Baydenin tərəfdaşı kimi qəbul edirdi. Hətta Baydendən razı olmayan seçicilər Harrisin vitse-prezidentliyə namizədliyi irəli sürüldükdən sonra gələcəyin Prezidentini dəstəkləməyə başlamışdılar.

Beynəlxalq ictimaiyyət ABŞ-ın yeni Prezidentinə qara qutu kimi baxır. İnsanlar qutunun içindən nə çıxacağını bilməkdə hələ çətinlik çəkirlər. Axı ilan vuran ala çatıdan qorxar. Dörd il rəqiblə də, müttəfiqlə də təzyiq, sanksiya dili ilə danışmış Trampın dünyanı çalxalayan siyasəti yaddan çıxmayıb. Hamı Ağ ev administrasiyasının, nəhayət, normal siyasət yürüdəcəyini səbirsizliklə gözləyir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Vətən üçün doğulanlar torpaq uğrunda canlarını əsirgəmirlər

## 20 Yanvar şəhidlərinin ailələrinə və əlillərinə dövlət qayğısı davam edir

Xalqımızın milli oyanış və azadlıq mübarizəsinin mühüm mərhələsi olan 1990-cı ilin Qanlı Yanvarından 31 il ötür. 20 Yanvar xalqımızın yaddaşına ağrı-acılı, göz yaşları ilə yazılmışdır.



Bu, təkcə bir elin qəddarlığa, amansızlığa qarşı savaşı deyildi, bütünlüklə millətin ölüm-dirim mübarizəsi idi. Yaşadığımız o gecədən xalqımız qalib, imperiya isə məğlub çıxdı, hərçənd, günahsız soydaşlarımız qanlarına qəltan edildilər.

Vətən üçün doğulmuşlar, torpaq uğrunda şəhid olanlar xalqımız və dövlətimiz tərəfindən unudulmur. 31 ildir ki, davam edən həmin diqqət və qayğının müəllifi Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevdir.

1993-cü ildən Ermənistanın təcavüzü nəticəsində işğala məruz qalmış Kəlbəcərdən didərgin salınan, əsasən ulu Gəncə torpağında müvəqqəti məskunlaşan kəlbəcərlilər arasında da vətən, torpaq uğrunda canlarını əsirgəməyən şəhidlər az deyil. Onların istər yadigarları, istərsə də ata-anaları, doğmaları dövlət qayğısından kənarda qalmayıblar.

20 Yanvar Ümumxalq Hüzn Günündə Kəlbəcər rayon rəhbərliyi 20 Yanvar şəhidi Cabbarov Firuz Vəli oğlunun ailəsini ziyarət etmişdir. Görüşdə Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş soydaşlarımızın əziz xatirəsi anılmış, onların qəhrəmanlıq salnaməsindən söz açılmışdır. 20 Yanvarın milli azadlıq hərakatının zirvəsi olduğu, o zaman şəhid olmuş insanların xalqımızın qəlbinə azadlıq toxumu əkdikləri bildirilmişdir: "20 Yanvar faciəsi zamanı xalqımızın Ümummilli Lideri Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedərək bəyanatla çıxış etmiş, bu cinayətin təkcə Azərbaycan xalqına deyil, bəşəriyyətə qarşı törədildiyini dünya ictimaiyyətinə çatdırmışdır. 20 Yanvar xalqımızın qan yaddaşıdır. Ona görə də o müdhiş günlərdə şəhid olanlarımız Vətən mücahidləri kimi daim qəlbimizdə yaşayacaq, heç vaxt da unudulmayacaq".

O da vurğulanmışdır ki, ötən müddətdə ölkəmiz qüdrətlənmiş, Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad edilmişdir: "Biz də doğma Kəlbəcərimizə qovuşmuşuq. Artıq Kəlbəcər öz doğmalarına qucaq açıb. Biz Kəlbəcərdəyik. Tezliklə dədə-baba yurdumuz Kəlbəcərin yeni növrağını yaşayacağıq".

***Zahid MUXTAR,***
***"Kəlbəcər harayı" qəzetinin baş redaktoru***

# Bir dəqiqəlik sükut

Yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



AZƏRTAC xəbər verir ki, nəqliyyatın hərəkəti dayandırılıb, gəmilərdən, avtomobillərdən səs siqnalları verilib, hüzn əlaməti olaraq Dövlət bayraqları endirilib.

Qeyd edək ki, Qanlı Yanvar faciəsinin otuz birinci ildönümü ilə əlaqədar respublikanın şəhər və rayonlarında şəhidlərin xatirəsi anılıb.

Yanvarın 20-də səhər saatlarından başlayaraq Şəhidlər xiyabanını ziyarət edən insanlar qəhrəman vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə qərənfillər düzüblər.

# Lənkəranda 20 Yanvar şəhidlərinin xatirəsi anılıb

20 Yanvar şəhidlərinin xatirəsi Lənkəranda da ehtiramla yad olunub. Şəhər icra hakimiyyətinin rəhbərliyi və məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, təşkilatların kollektivləri və ictimaiyyətin nümayəndələri səhər saatlarından Şəhidlər abidə kompleksini ziyarət ediblər.




Şəhidlərin ruhuna dualar oxunduqdan sonra mərasim iştirakçıları koronavirus pandemiyası ilə bağlı tətbiq olunmuş karantin rejiminin tələblərinə riayət etməklə növbəlilik əsasında abidənin önünə gül-çiçək dəstələri düzərək Vətənin azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Saat 12:00-da Lənkəran rayonunda da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

***S.CAVADOV,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusdan 770 nəfər sağalıb, 218 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 770 nəfər müalicə olunaraq sağalıb, 218 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

İndiyədək ölkəmizdə 228 min 246 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 218 min 387 nəfər müalicə olunaraq sağalıb, 3053 nəfər vəfat edib. Aktiv xəstə sayı 6806 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 341 min 807 test aparılıb. Dünənki test sayı isə 5309-dur.




## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 03 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (e.tender) Qazanlara (Boiler) texniki xidmətin satın alınması üzrə **"ASC CO" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 13 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

Elm xadimləri

# Elmə xidmətin miqyası və missiyası



Son yüzillik ərzində Azərbaycan tarix elminin verdiyi ən böyük imtahanlardan biri milli dövlətçilik tariximizə münasibətin tədqiq edilib araşdırılması ilə əlaqədar olmuşdur. Məlum sovet ideologiyası SSRİ-yə daxil olan xalqların milli dövlətçilik tarixinin, görkəmli tarixi şəxsiyyətlərinin öyrənilib yeni nəsillərə çatdırılması məsələsini arxa plana keçirdiyi üçün uzun bir dövr ərzində bu mövzu nəinki diqqət mərkəzindən kənarda saxlanılmış, həm də tarixi keçmişin unutdurulması istiqamətində müvafiq ideoloji iş aparılmışdır.

Sovet dövründə milli dövlətçilik ənənələri və ya tarixdə yaşamış adlı-sanlı dövlət xadimlərinin adları ən yaxşı hallarda vətənpərvərlik mövzusunda yazılmış publisist əsərlərdə çəkilməklə kifayətlənilmişdir. Bu mənada milli dövlətçilik tarixi problemi özünün miqyası və missiyası, sistemi ilə müstəqillik dövrü Azərbaycan elminin əsas mövzularından biridir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyev yeni tarixi şəraitdə Azərbaycan tarixşünaslıq elminin əsas aparıcı mövzularından biri olan milli dövlətçiliyin tarixi, böyük simaları və ənənələri probleminin görkəmli və fədakar tədqiqatçılarından biridir. Müstəqillik illərində İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın milli dövlətçilik tarixində" mövzusunda uğurla müdafiə etdiyi doktorluq dissertasiyası (1999) və çap etdirdiyi sanballı monoqrafik tədqiqatlar geniş mənada ölkəmizin milli dövlətçilik ənənələri haqqında yazılmış qiymətli elmi əsərlərdir. Akademik İsmayıl Hacıyev Azərbaycanın milli dövlətçilik tarixində özünəməxsus mühüm yeri və rolu olan Naxçıvan məktəbinin tarixini və tanınmış simalarını sistemli şəkildə araşdırıb öyrənməklə Azərbaycan tarixi dərslərinin mükəmməl, ümumiləşdirilmiş və bütöv elmi mənzərəsini yaratmağa öz töhfəsini vermişdir.

Atabəylər dövlətindən Naxçıvan Çuxursəd bəylərbəyliyinə, Naxçıvan xanlığına, Naxçıvan mahalına, Araz-Türk Respublikasına, Naxçıvan MSSR-ə və nəhayət, Naxçıvan Muxtar Respublikasına qədər keçilmiş tarixi yolun, yaşanmış ictimai-siyasi hadisələrin akademik İsmayıl Hacıyev tərəfindən dərindən və əsaslı şəkildə tədqiq olunması əslində həm də ümumilikdə Azərbaycanın dövlətçilik tarixinin bütün əsas mərhələlər üzrə inkişaf proseslərinin müəyyənləşdirilərək tədqiq olunması deməkdir. Milli dövlətçilik tariximizin qeyd olunan əksər mərhələləri haqqında Azərbaycan tarixşünaslıq elmində müəyyən tədqiqatların olmasına baxmayaraq, İsmayıl Hacıyev heç kəsi təkrar etmədən, hər tarixi mərhələyə dair ciddi tədqiqatlar aparmaqla, mühüm əlavələr etməklə tədqiq etdiyi mövzuda tam yeni forma və məzmuna malik olan fundamental elmi əsərlər meydana qoymuşdur.

Fikrimizcə, akademik İsmayıl Hacıyevin daha bir mühüm xidməti də milli dövlətçilik tariximizin inkişaf proseslərinin tədqiq olunmasının sistemini müəyyən etməsi ilə əlaqədardır. İsmayıl Hacıyevin tədqiqatlarında Azərbaycan dövlətçilik tarixi keçmiş sovet-marksist nəzəriyyəsindəki ictimai formasiyalar təlimi ilə yox, ictimai-siyasi hadisələrlə tarixi şəxsiyyətlərin mübarizəsinin tarixi kimi müasir elmi metodologiya əsasında araşdırılıb ümumiləşdirilmişdir. Ümumiyyətlə, humanitar elm sahələrindən hər hansı birinin araşdırıcısı üçün, xüsusən də milli dövlətçilik ənənələrinin tarixçisindən ötrü zəruri olan aydın vətənpərvərlik mövqeyi ilə elmi obyektivlik meyarlarını qorumaq prinsipi İsmayıl Hacıyevin timsalında baş tutmuşdur. Akademik İsmayıl Hacıyev tarixçi alim kimi doğulub boya-başa çatdığı Culfa rayonundakı Xanəgah kəndinin vüqarına çevrilmiş məşhur Əlincə qalasının qürurunu öz tədqiqatlarında birləşdirmişdir. İsmayıl Hacıyevin ata-baba ocağı olan qədim Xanəgah kəndinin bir tərəfində Əlincə yaddaşının, digər tərəfində isə Fəzlullah Nəimi əqidə bütövlüyünün özünəməxsus yer tutmasını şərtləndirmişdir. Akademik İsmayıl Hacıyev müasir dövrdə Azərbaycan tarixşünaslıq elminin məsuliyyətli və vətənpərvər yaradıcılarından biridir. Görkəmli tarixçi alimin əsərləri milli dövlətçilik tariximizə və Azərbaycan elminə məsuliyyətlə və şərəflə xidmət göstərməyə nümunədir. Obrazlı şəkildə belə demək olar ki, akademik İsmayıl Hacıyev Azərbaycanın dövlətçilik tarixinin Şəmsəddin Eldənizdən Heydər Əliyevə qədərki çoxəsrlik və fundamental tarixi salnaməsini yaratmışdır. Onun tədqiqatlarında Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Heydərqulu xan Kəngərli, Kalbalı xan Naxçıvanski, Abbasqulu xan Kəngərli, general Ehsan xan Naxçıvanski, Behbud ağa Şahtaxtinski, Məhəmməd xan Təkinski, Mirzə Nəsrullah Əmirov, Bəhram xan Naxçıvanski və başqaları kimi hərəsi bir tarixi dövrün dövlət qurumlarının aparıcı simaları olan şəxsiyyətlərin xidmətləri dərindən təhlil olunub dəyərləndirilmişdir.

Akademik İsmayıl Hacıyev Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik fəaliyyətinin, siyasi təliminin və irsinin ölkəmizdəki əsas tədqiqatçılarından biridir. Onun "Heydər Əliyev və milli tarixi yaddaşın bərpası", "Heydər Əliyev siyasi tariximizdə və günümüzdə" kitabları və Ulu Öndərə həsr olunmuş məqalələri Azərbaycan Heydər Əliyevşünaslığının qiymətli nümunələridir. İsmayıl Hacıyevin təqdimatında Heydər Əliyev Azərbaycan xalqının çoxəsrlik tarixində meydana çıxmış dünya miqyaslı qüdrətli dövlət xadimi və nadir tarixi şəxsiyyətdir. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri və Azərbaycan Respublikasının Prezidenti kimi xilaskarlıq və quruculuq missiyası da tarixçi alimin tədqiqatlarında tarixi faktlardan və hadisələrdən çıxarılmış təbii və qanunauyğun nəticələr kimi şərh edilir və təqdim olunur. Bundan başqa, İsmayıl Hacıyev Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında böyük inkişafın hadisələri və proseslərini də Heydər Əliyev - İlham Əliyev ideallarının işığında canlandırmağı elmi-metodoloji prinsip olaraq əsas kimi qəbul etməyin nümunəsini göstərir. Bütün bunlara görə İsmayıl Hacıyevin Ümummilli Lider Heydər Əliyev haqqında yazıb nəşr etdirdiyi kitablar və məqalələr Azərbaycan milli dövlətçilik tarixinin XX əsrdəki xüsusi bir epoxasının elmi cəhətdən əsaslı şəkildə dəyərləndirilməsi kimi səslənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxcəhətli fəaliyyətinə həsr etdiyi tədqiqatlar və Naxçıvan Muxtar Respublikasının timsalında Naxçıvan Muxtar Ali Məclisinin sədri Vasif Talıbovun ardıcıl surətdə həyata keçirdiyi quruculuq proqramları ilə əlaqədar diqqət mərkəzinə çəkdiyi tarixi məqamlar nəticə etibarilə müstəqil dövlətçiliyimizin reallıqlarının təqdimatı səviyyəsində ümumiləşdirilir.

Akademik İsmayıl Hacıyev Naxçıvan diyarının fədakar tədqiqatçısıdır. Ümumiyyətlə, Naxçıvanın çoxəsrlik tarixində və müasir inkişafında elə bir hadisə və mühüm bir fakt yoxdur ki, İsmayıl Hacıyevin tədqiqatlarında öz əksini tapmamış olsun. Onun "Tarixdə və günümüzdə Naxçıvan", "Naxçıvan və naxçıvanlılar", "Naxçıvan Muxtar Respublikasının ictimai siyasi həyatı, sosial iqtisadi və mədəni inkişafı", "Naxçıvan Muxtar Respublikası - 90. Quruculuq salnaməsi", "Naxçıvan - qədim Şərq sivilizasiyası ilə bağlı olan diyar" (Azərbaycan, rus və ingilis dillərində), "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında", "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" və sair kitabları əslində geniş mənada "Naxçıvan - Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyasının fəsilləri və əlavələri təsirini bağışlayır. Bu mənada "Naxçıvan-Azərbaycanın dövlətçilik tarixində" sərlövhəsi İsmayıl Hacıyevin yalnız doktorluq dissertasiyasının və ya eyniadlı sanballı monoqrafiyasının deyil, bütövlükdə alimin elmi əsərlərinin və elmi-təşkilati fəaliyyətinin ümumiləşdirilmiş adıdır. İsmayıl Hacıyevin kitabları və məqalələri Naxçıvanın tarixinə və müasir inkişafına həsr olunmuş çoxcildlik sanballı bir Naxçıvannamədir. Bununla belə, İsmayıl Hacıyev salnaməçi olmayıb, özünəməxsus elmi təfəkkürü, qiymətləndirmə meyarları, ümumiləşdirmə bacarığı olan yaradıcı tarixçi alimdir. O, əsərlərində haqqında bəhs etdiyi tarixi dövrün və ya şəxsiyyətin sənədlər, faktlar və rəqəmlərlə təsvir olunmasına yox, aid olduğu, əhatə etdiyi hadisələrin və proseslərin axarında təhlil edilib dəyərləndirilməsinə nail olmağı bacarmışdır. İsmayıl Hacıyevin Naxçıvana həsr olunmuş kitablarından bu qədim diyarın sadəcə çoxəsrlik tarixi gedişatını yox, tam mənası ilə özünəməxsusluğunu, mahiyyətini, regiondakı və ölkə tarixindəki yerini və əhəmiyyətini dərindən və əsaslı şəkildə, dərkolunmuş səviyyədə öyrənmək mümkündür. Bu mənada İsmayıl Hacıyev Naxçıvanın tarixini və müasir inkişafını azərbaycanşünaslıq miqyasında və yüksək professionallıq səviyyəsində təqdim edir. Bir az əvvəl, 2020-ci ildə çap olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikaya rəhbərlik etdiyi 1995-2019-ci illərin zəngin statistik salnaməsi olmayıb, müstəqil dövlətimizin keçdiyi yolların işığında təhlildən keçirilərək, sistemli elmi tədqiqat kimi meydana qoyulmuş araşdırmalardan ibarətdir. Monoqrafik təqdimatda ölkə rəhbərliyinin diqqət və qayğısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin siyasi iradəsi, dövlətçilik təcrübəsi, əzmkarlıq və uzaqgörənliyi sayəsində Naxçıvan Muxtar Respublikasının müstəqil Azərbaycan dövlətçiliyinin inkişafındakı, ölkəmizin ərazi bütövlüyünün qorunub möhkəmləndirilməsindəki, region dövlətləri ilə əlaqələrinin genişləndirilməsindəki yeri, rolu və xidmətləri açılıb aydınlaşdırılmış, ümumiləşdirilərək obyektiv şəkildə qiymətləndirilmişdir. Bu kitab sözün əsl mənasında Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrünün tarixi oçerkləridir. Hesab edirəm ki, İsmayıl Hacıyev bu əsəri ilə konkret bir tarixi dövrün inkişafını hərtərəfli şəkildə göstərmək üçün icmalçılıqdan qurtarıb, hadisələri, prosesləri və nəticələri elmi-nəzəri şəkildə əks etdirməyin özünəməxsus modelini yarada bilmişdir.

Azərbaycan tarixində bir çox məsələlər, o cümlədən Moskva, Qars və Gümrü müqavilələrinin tarixi şəraiti, regional və beynəlxalq əhəmiyyəti, Araz-Türk Respublikasının yaranması, strukturu, tərkibi və fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri və sair kimi məsələlər ilk dəfə Azərbaycan tarixşünaslığının elmi dövriyyəsinə akademik İsmayıl Hacıyev tərəfindən gətirilmişdir. Eyni zamanda İsmayıl Hacıyev Naxçıvan diyarının XIX-XXI əsrləri əhatə edən iki yüz ildən çox bir tarixi dövrünün hadisələri və şəxsiyyətləri haqqında yüzlərlə arxiv sənədlərini və dövri mətbuat materiallarını da müasir tarixşünaslıq elminin gündəminə daxil etmişdir. Həmin sənədlər və materiallar ümumiyyətlə Azərbaycan tarixinin, region dövlətləri ilə əlaqələrin araşdırılıb öyrənilməsi üçün zəruri və əhəmiyyətlidir. Bu məqamda İsmayıl Hacıyev elmi-nəzəri araşdırmaları ilə yanaşı, praktik tarixçilik missiyasını da məsuliyyətlə və şərəflə yerinə yetirmişdir.

Akademik İsmayıl Hacıyev ölkəmizdə həm də peşəkar elmi və ali təhsil təşkilatçısı kimi tanınır. O, uzun illər Naxçıvan Dövlət Universitetində fakültə dekanının müavini, dekanı, tədris işləri üzrə prorektor (1997-2003) vəzifələrində çalışarkən yorulmaz və tələbkar ali təhsil təşkilatçısı olduğunu göstərmişdir. Eyni zamanda Naxçıvan Dövlət Universiteti də İsmayıl Hacıyevin elmi inkişafında əsl məktəb funksiyasını yerinə yetirmişdir. İsmayıl Hacıyev Naxçıvan Dövlət Universitetində çalışdığı dövrdə "Böyük Vətən müharibəsi illərində Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı" mövzusunda namizədlik (1992), "Naxçıvan Muxtar Respublikası Azərbaycan milli dövlətçilik tarixində" mövzusunda doktorluq (1999) dissertasiyası müdafiə etmişdir. Azərbaycan elminin tarixində Naxçıvan Dövlət Universitetinin elmi və tədris işləri üzrə prorektorları İsmayıl Hacıyev (tarix üzrə) və Zöhrab Vəliyev (fizika üzrə) Naxçıvan Dövlət Universitetində yaradılmış ixtisaslaşdırılmış dissertasiya şurasında Ali Attestasiya Komissiyasının sədri, dünya şöhrətli alim, akademik Azad Mirzəcanzadənin və AAK-ın kollegiya üzvlərinin tam tərkibdə iştirakı, ölkə üzrə ən tanınmış mütəxəssislərin rəyləri və səsverməsi ilə doktorluq dissertasiyası müdafiə etmiş və elə həmin gün də işləri kollegiyanın səyyar iclasında müzakirə olunaraq, elmlər doktoru diplomuna layiq görülmüş yeganə elm adamlarıdırlar.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri kimi də akademik İsmayıl Hacıyev elmi-təşkilati iş sahəsində səmərəli fəaliyyət göstərir. Azərbaycan dövlətinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi rəhbərliyinin göstərdiyi böyük qayğıdan regionda ölkə meyarları səviyyəsində elmin inkişaf etdirilməsi üçün səmərəli şəkildə istifadə etməklə o, bir çox mühüm elmi layihələrin həyata keçirilməsini təşkil etmiş, Naxçıvanda yeni elmi nəslin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. AMEA-nın Naxçıvan Bölməsinin çap etdirdiyi 3 cildlik "Naxçıvan tarixi", "Naxçıvan folkloru antologiyası", 2 cildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvanın tarixi atlası" albomu, "Naxçıvan Muxtar Respublikasının dövlət qoruqları və yasaqlıqları" kimi sanballı nəşrlər Naxçıvan diyarının elmi pasportu olmaqla bərabər, geniş mənada Azərbaycan elminə əsl xidmətdir. Dövlət qayğısı nəticəsində AMEA Naxçıvan Bölməsində illərdən bəri təşkil edilmiş beynəlxalq elmi konfranslar, beynəlxalq elmi ekspedisiyalar, yaradılmış elmi-tədqiqat institutları, laboratoriyalar, muzeylər qədim elm və ictimai fikir mərkəzlərindən biri olmuş Naxçıvanda yenidən müasir tipli elmi mərkəzlərin və məktəblərin formalaşdırılmasına şərait yaradır. Naxçıvan Bölməsinin sədri kimi akademik İsmayıl Hacıyevin təşkilatçılıq bacarığı, elmi səriştəsi, məsuliyyəti ilə əldə olunan nailiyyətlərin meydana çıxmasında mühüm faktorlardan biri kimi çıxış edir. Bu gün AMEA-nın Naxçıvan Bölməsi ölkəmizin paytaxtındakı akademik elmi qurumlarla sağlam rəqabət apara bilən elmi mərkəzlərdən birinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının sosial-iqdisati və elmi-mədəni inkişafına da AMEA-nın Naxçıvan Bölməsi öz töhfələrini verir.

Bütün bunlara görədir ki, akademik İsmayıl Hacıyev müstəqillik dövrü Azərbaycan elminin fəal təşkilatçılarından biri və tarixşünaslığın ön sıralarında təmsil olunan görkəmli alim kimi qəbul olunur. Onun əsərləri yaxın və uzaq xarici ölkələrdə də çap olunur və istinad edilən mənbələr kimi maraq doğurur. Akademik İsmayıl Hacıyev Azərbaycan elmini ölkəmizdə olduğu kimi, beynəlxalq miqyasda da yüksək səviyyədə təmsil edir.

Ölkəmizin ictimai-siyasi və elmi-mədəni həyatında da akademik İsmayıl Hacıyev yaxından və fəal iştirak edir. O, II çağırış Naxçıvan Muxtar Respublikası Milli Məclisinin deputatı kimi səmərəli iş aparmış, respublikamızda müstəqil dövlətçilik və azərbaycançılıq ideallarının həyata keçirilməsinə ziyalı borcunu yerinə yetirmək üçün əzmlə çalışır. Ölkəmizin elmi və mədəni mühitində də akademik İsmayıl Hacıyevin özünəməxsus yeri var. O, AMEA Naxçıvan Bölməsində Dissertasiya Şurasının sədri kimi yüksək hazırlıqlı və vətənpərvər elmi nəslin formalaşdırılmasına böyük zəhmət sərf edir. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında hazırlanmaqda olan çoxcildlik "Müstəqillik dövrü Azərbaycan tarixi" kitabının əsas müəlliflərindən biri olaraq, ölkə miqyaslı elmi layihənin həyata keçirilməsi üçün üzərinə düşən elmi vəzifələri bacarıqla yerinə yetirir.

Azərbaycan dövləti görkəmli alim və ictimai xadim İsmayıl Hacıyevin elmi və elmi-təşkilati fəaliyyətini yüksək qiymətləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə akademik İsmayıl Hacıyev Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 8 fevral 2019-cu il tarixli sərəncamı ilə "Naxçıvan - Azərbaycanın milli dövlətçilik tarixində" adlı monoqrafiyasına görə o, Naxçıvan Muxtar Respublikası mükafatını almışdır. Səmərəli elmi və ictimai-siyasi fəaliyyətinə əsasən müxtəlif illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, AMEA Rəyasət Heyətinin, Təhsil Nazirliyinin fəxri fərmanları, Naxçıvan MR Ali Məclisinin Xatirə medalı, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdur. Akademik İsmayıl Hacıyev Türkiyə Cümhuriyyəti Avrasiya Kültür və Sənət Qurumunun, Hüseyn Qazı Vəqfinin diplomları, Amerika Bioqrafiya İnstitutunun qızıl medalı ilə mükafatlandırılmışdır.

Elmimizə geniş miqyasda və professional səviyyədə xidmət etmək missiyasını şərəflə və məsuliyyətlə həyata keçirmək yollarında görkəmli və hörmətli alim həmkarımıza, akademik İsmayıl Hacıyevə daha böyük uğurlar arzulayırıq.

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın vitse-prezidenti,*
*Milli Məclisin deputatı,*
*akademik*

# "Tarix üçün çəkirəm..."

## Fotojurnalist Fərman Bağırov belə deyərdi



1990-cı ilin 19 yanvar axşamı - əliyalın insanlara qarşı topa-tüfəngə rəvac verildiyi andan üç-dörd saat əvvəl Bakının Salyan kazarması adlanan yerində toplaşmış izdihamı yararaq bir nəfər əlində fotoaparat irəliyə doğru addımlayırdı. Qəflətən fotoaparatına bir əl toxunduğunu gördü və bunun ardınca izdihamdan gur səs gəldi:

- Yoxsa sənə də deyiblər ki, biz ekstremistlərik?

Bu səslərdə sanki qəzəblə kədər birləşmişdi. Fotoaparatlı adam baş verən olayları olduğu kimi dərk etdiyindən təmkinini pozmamağa çalışdı. Bununla belə dilindən qeyri-ixtiyar bu sözlər qopdu:

- Mənə heç kim heç nə deməyib. Mən tarix üçün çəkirəm!..

O narahat axşamın qanlı gecəsinin hüznlü səhərində də fotojurnalist Fərman Bağırov evindən qəlbinin hökmü, vicdanının səsi, ömrünü həsr etdiyi peşəsinin tələbi ilə küçəyə çıxmışdı. O, heç çalışdığı "Kommunist" qəzetindən tapşırıq da almamışdı. Çünki həmin il məzuniyyəti qışa düşmüşdü...

Cəlladlar gecə törətdikləri faciə ilə kifayətlənməmişdilər, axıtdıqları nahaq qanlardan "doymayıb" ayın 20-də gündüz hərdən yenə atəş açırdılar. Fərman bu dəfə bilərəkdən kiçik fotoaparat götürmüş və onu pencəyinin qoltuğunda gizlətmişdi. Şəhərboyu irəliləyir və gördüklərini xəlvətcə çəkməyə çalışırdı ki, hərbçilərin diqqətini cəlb etməsin. Amma onu artıq izləyirdilər. Fərman tezcə daha bir kadr çəkib guya hara isə tələsirmiş kimi qarşıdakı iki yaşayış binasının arasında sanki dəhliz yaratmış dar yoldan keçərək gözdən itdi. Hərbçilər ona atəş açmağa macal tapmadılar. Amma Fərman nədənsə kürəyində bir gizilti hiss etdi...

Bütün bunlara baxmayaraq, Fərman Bağırov ertəsi gün də çiynində fotoaparat Bakının küçələrindən çəkilmədi. Yalnız bir neçə gündən sonra yadına düşdü ki, yanvarın 21-də ömrünün növbəti - 55-ci pilləsinə qədəm qoyub...

Deməli, həyatı yaşının 54-cü ilinin son günündə qırıla bilərmiş. Amma ömür payı hər kəsə Allah tərəfindən verilir. Fərman müəllimin qismətində bundan sonra daha 30 ildən bir az da çox yaşamaq, Azərbaycanın dövlət müstəqilliyini görmək, ölkəmizin adını daşıyan rəsmi dövlət qəzetində çalışmaq, nəvə-nəticə sahibi olmaq varmış...

"Həyata seyrçi kimi baxmaq olmaz, həyatı həyat kimi yaşamaq lazımdır" deyirdi Fərman müəllim. Elə bu cür də yaşadı. Fotojurnalistikada 65 illik fəaliyyəti zamanı çəkdiklərini də sadəcə obyektivə alıb kağıza köçürmədi. Fotolarının hamısını "görərək", duyaraq, mənasını-məzmununu dərk edərək çəkdi.

Foto ilə yeniyetməlik çağından maraqlanmağa başlamışdı. Ordu sıralarında xidmətini başa çatdırandan sonra gənc Fərmanın fotoya marağı o dövrdə Azərbaycanın ən nüfuzlu mətbu orqanı olan "Kommunist" qəzetinin redaksiya heyətinin diqqətini cəlb etmişdi. Lakin o zaman həmin qəzetdə fotoillüstrasiya ilə məşğul olanlar qeyri-millətlərin nümayəndələri idi. "Kommunist" Mərkəzi Komitənin orqanı olduğundan qəzetə əlavə ştatın verilməsi də orada müəyyənləşdirilirdi. Odur ki, Fərman Bağırovu fotomüxbir kimi bir müddət ştata götürmək mümkün olmamışdı. O isə ruhdan düşməyərək qəzet üçün maraqlı-məzmunlu fotolar çəkməkdə davam etmişdi. Çox keçmədən ştatdakı "qeyri"lərdən daha yaxşı fotolar çəkdiyinə görə işə götürülmüşdü. Yeri gəlmişkən qeyd edək ki, Fərman müəllim sevimli işindən ayrılmadan Azərbaycan Dövlət Universitetinin (indi BDU) Jurnalistika fakültəsini bitirmiş, sonralar bir müddət həmin fakültədə tələbələrə foto sənətkarlığından dərs vermişdi.

Bəlkə bu da bir taledir ki, Fərman Bağırov həm sovet dönəmində, həm də müstəqillik illərində Azərbaycanın ən aparıcı mətbu orqanlarında çalışıb. Əmək kitabçasında yalnız ikicə qəzetin - "Kommunist"in və "Azərbaycan"ın adı var. "Azərbaycan"da uzun müddət Fotoillüstrasiya şöbəsinin müdiri olub.

Mövzu dairəsi olduqca geniş idi. Fərman Bağırov uzun illər tarlalardan və zəmilərdən, mədənlərdən və zavodlardan, təyyarədən və gəmidən, metro tikintisini işıqlandırarkən isə hətta yerin altından fotolar çəkib. Təbiəti və müasirlərini əks etdirən fotolarından da aydın görünür ki, əsl yaradıcı insan olub.

Fərman Bağırovun fotoobyektivindən rast gəldiyi çatışmazlıqlar, neqativ hallar yayınmazdı. Təsadüfi deyil ki, saysız-hesabsız fotoittihamları da vardı. Ancaq deyərdi ki, onun üçün ən böyük məsuliyyət və qürur dövlət tədbirlərindən, yüksək səviyyədə keçirilən görüşlərdən, beynəlxalq simpozium və konfranslardan fotolar çəkməkdir. Belə ki, Fərman Bağırova bir müxbir kimi dəfələrlə Ümummilli Lider Heydər Əliyevin iştirak etdiyi tədbirlərdən fotolar çəkmək qismət olmuşdu. Bu fotolar Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrə aid idi.

1994-cü ilin narahat və təlaşlı bir payız axşamında, Azərbaycanda dövlət çevrilişinə cəhd göstəriləndə xalq Ümummilli Lider Heydər Əliyevin çağırışına cavab verərək bir izdiham dənizində birləşmişdi. Fərman Bağırov da orada idi. Fotoaparatı ilə birlikdə...

O eləcə də Milli Məclisin iclaslarından, bir çox digər rəsmi tədbirlərdən çəkilən saysız-hesabsız fotoların müəllifi idi. Maraqlıdır ki, yaddaşında çəkdiyi fotoların az qala hərəsi ilə bağlı bir unudulmaz xatirəsi qalmışdı.

Fərman Bağırov Azərbaycanda və onun hüdudlarından kənarda bir çox fotosərgilərdə iştirak etmiş və birinci dərəcəli diplomlara layiq görülmüşdür. 1969-cu ildə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanını almışdı. Jurnalistika qarşısında xidmətləri 1989-cu ildə "Əməkdar mədəniyyət işçisi" adı, 2005-ci ildə "Tərəqqi" medalı ilə qiymətləndirilmişdir.

Fərman müəllim Prezident İlham Əliyevin jurnalistlər üçün tikdirdiyi evdəki mənzilində ailəsi ilə birlikdə fərəhlə yaşayırdı. Yeri gəlmişkən, həyat yoldaşı, jurnalist Zümrüd xanımla da sənət yollarında rastlaşmışdı. Onlar talelərini birləşdirmiş, üç gözəl övlad böyütmüş, onları yerbəyer etmiş, xoşbəxt ömür sürmüşlər.

"Azərbaycan"çılar kecmiş iş yoldaşları, unutmadıqları tanınmış fotojurnalist Fərman Bağırovu bu gün yəqin ki, redaksiyaya dəvət edər, 85 illik yubileyinin sevincini onunla birliklə yaşayardılar. Əgər həmkarımızın ömrü yarımca il vəfa etsəydi... Biz Fərman müəllimi yaratdığı fotosalnaməni vərəqləyərək həmişə xatırlayır, hörmətlə yad edirik.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Könüllü gənclər nümunə göstərirlər





Göygöl Rayon İcra Hakimiyyətində rayon könüllüləri ilə görüş keçirilmişdir. Görüşdən əvvəl iştirakçılar rayon mərkəzindəki Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən oğullarının xatirəsini ehtiramla anmış və məzarları üzərinə tər çiçəklər düzmüşlər.

Görüşdə bildirilmişdir ki, hazırda bütün ölkədə olduğu kimi, Göygöl rayonunun dövlət strukturlarında da könüllü gənclər fəaliyyət göstərirlər. Gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişləri aşılamaq, təcrübə və biliklərini artırmaq, yaradıcı və innovativ potensiallarının üzə çıxarılmasını dəstəkləmək və könüllülük hərəkatını inkişaf etdirmək üçün çoxsaylı tədbirlər həyata keçirilir.

Tədbirdə qeyd edilmişdir ki, könüllülər bir neçə istiqamətdə fəaliyyət göstərirlər. İki ay müddətində onların yaradıcı və innovativ potensialının üzə çıxarılması istiqamətində xeyli iş görülmüşdür. Bu fəaliyyət həm gənclər, həm də Göygöl Rayon İcra Hakimiyyəti üçün faydalı olmuşdur.

Çıxış edən könüllülər qısa vaxt ərzində böyük təcrübə qazandıqlarını, bu təcrübənin onların gələcək əmək fəaliyyətləri dövründə böyük əhəmiyyət daşıyacağına əminlik ifadə etmiş və onlar üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

Sonda Göygöl Rayon İcra Hakimiyyətində təcrübə keçmiş könüllü gənclərə xüsusi sertifikatlar təqdim olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 03 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (e.tender) Fasad təmizləmə avadanlıqlarına texniki xidmətin (təmir materialları daxil olmaqla) satın alınması üzrə **"Avropa Lift Sistemləri" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 13 yanvar 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**"Azərişıq" ASC tərəfindən 06 noyabr 2020-ci il** tarixdə "Müxtəlif antistatik və digər kimyəvi tərkibli boya məhsullarının satın alınması" məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT üzrə **"MURADLI-M" MMC** şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 17 dekabr 2020-ci il vahid satınalma Portalında elan edilmiş "5 ədəd pikap tipli avtonəqliyyat vasitəsinin satın alınması" üzrə keçirilmiş təkliflər sorğusu prosedurunun qalibi **"Diamond Motors" MMC** müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Diamond Motors" MMC arasında 11 yanvar 2021-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1 - "Aztelekom" MMC tərəfindən tələb olunan Fiber optik rabitə xətləri üçün birləşdirici və sonlama ləvazimatlarının satın alınması

**İştirak haqqı: 1000 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **"ASAN ödəniş" sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən mikro, kiçik və ya orta sahibkarlıq subyektləri olduğunu təsdiq edən arayış;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 12 fevral 2021-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 22 fevral 2021-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 23 fevral 2021-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1 - "Aztelekom" MMC tərəfindən tələb olunan hava rabitə xəttlərinin elementlərinin satın alınması

**İştirak haqqı: 1000 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **"ASAN ödəniş" sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər.

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Azərbaycan Respublikası Statistika Komitəsindən mikro, kiçik və ya orta sahibkarlıq subyektləri olduğunu təsdiq edən arayış;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər. Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 15 fevral 2021-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 23 fevral 2021-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 24 fevral 2021-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

### *açıq tender elan edir*

**LOT-1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında havalandırma, soyutma və isitmə sistemlərinə, su və kanalizasiya sistemlərinə 2021-ci il ərzində texniki xidmətlərin satın alınması.

**LOT-2.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında mühafizə sistemlərinin (giriş-çıxış nəzarət sistemi, videomüşahidə sistemi), daxili şəbəkənin, İP müşahidə sisteminin, iş vaxtının uçotu proqram təminatının 2021-ci il ərzində texniki xidmətlərinin satın alınması.

**LOT-3.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatında istifadə olunan hesablama texnikası və elektrotexniki avadanlıqlara (kompüter, printer, skayner və surətçıxaran) texniki xidmətin (katriç, tonerlərin dəyişdirilməsi) satın alınması.

**LOT-4.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatında istifadə olunan hesablama texnikası və elektrotexniki avadanlıqlara (printer, skayner və surətçıxaran) katriclərin satın alınması.

**LOT-5.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasının mərtəbələrarası kommunikasiya avadanlıqlarının yenilənməsinin və sistemə inteqrasiyasının satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə etməlidirlər. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını (Portalda tender predmetinə aid səhifəyə girdikdə iştirak haqqının məbləği göstərilir və tenderdə iştirak haqqı Portalda Asan pay sistemi ilə ödənilir) ödədikdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün Portalda tender üzrə tələb olunan ilkin və texniki sənədləri təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini Portal vasitəsilə Portalda təyin edilmiş vaxtlarda təqdim etməlidirlər. Tender təklifləri Portalda təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** ***Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.***

Ünvan: Bakı şəhəri Az 1022, S.Vurğun küçəsi, 135

***Tender komissiyası***

## Salyan Rayon İcra Hakimiyyəti 2021-ci ildə Salyan rayonunda kənd yollarının cari təmirinin satın alınması (yollara çınqıl səpilməsi) məqsədilə

### *açıq tender elan edir*

**Salyan rayonunda kənd yollarının cari təmirinin satın alınması (yollara çınqıl səpilməsi)**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının analoji işlərdə təcrübəsi, təmir bərpa işləri üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə ala bilərlər (əlaqələndirici şəxs: Lalayev Mahir İdris oğlu, telefon: 0-21-255-50-23).

**İştirak haqqı: 650 manat**
**Təşkilat: Salyan Rayon İcra Hakimiyyəti 17 saylı Regional Xəzinədarlıq İdarəsi Dövlət Xəzinədarlıq Agentliyi**
**Hesab AZ41NABZ 01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Fond 7Y**
**Salyan Rayon İcra Hakimiyyəti**
**Hesab AZ36CTRE 00000000000002513131**
**VÖEN: 7000028611**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
4. İddiaçının (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir.

4.1 İddiaçının (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2 İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

4.3 İddiaçının (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim edilməlidir);

- *Azərbaycan Respublikasında vergilərə və sosial sığorta ödənişlərinə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Vergilər Nazirliyi tərəfindən həmin iddiaçının işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış.*

İddiaçılar (podratçılar) tenderdə iştirak etmək üçün 1 və 4-cü bəndlərdə göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 fevral 2021-ci il saat 12:00-a qədər Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanətini isə 20 fevral 2021-ci il saat 12:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaq. İddiaçıların təklifləri 22 fevral 2021-ci il saat 12:00-da elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov UNEC-in Strateji inkişaf üzrə prorektoru, iqtisad elmləri doktoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şakir, Vüqar və Elnur Bədəlovlar, Rəfael və Əfqan Əhmədovlar, Ramiz Məhərrəmov Emin və Gülsüm Sadıqovlara ataları, "Şöhrət" ordenli, Əməkdar elm xadimi, ADİU-nun prorektoru, professor

**MİRDAMƏD SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti UNEC-in Strateji inkişaf üzrə prorektoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev iqtisad elmləri doktoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Vahid Mürsəliyev, Mirzə Tağızadə, Məhəmməd Ramazanov və Simran Həsənov iqtisad elmləri doktoru, professor

**MİRDAMƏD MİRSADIQ OĞLU SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Natiq Cavadov və Azad Quliyev ailələri ilə birlikdə Ramiz Nağıyevə həyat yoldaşı

**SƏYYARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5084
Sifariş 137
Qiyməti 40 qəpik